

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 29 aprel 2022-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU və Pakistanın Pir Mehr Əli Şah Arid Kənd Təsərrüfatı Universiteti arasında Anlaşma Memorandumu imzalanıb**
→Səh.3

**Görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anım günüdür**
→Səh.4

**Bəşəri ideyalar carçısı, böyük alim - Mir Cəlal Paşayev**
→Səh.4

**BDU-da Türkiyənin "Temrin" dərgisinin professor Şirməmməd Hüseynova həsr olunan xüsusi buraxılışının təqdimatı keçirilib**
→Səh.6

**BDU-nun əməkdaşları Baş Prokurorluqda "Natiqlik və sosial media ilə ünsiyyət" mövzusunda təlim keçiblər**
→Səh.7

**Azərbaycanlı Tələbə və Məzunlar Platformasının məlumat sessiyası keçirilib**
→Səh.14



**BDU və DOST Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb**
→Səh.2



**Təhsin Mütəllimovun 90 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib**
→Səh.2



**Koreya Respublikasının Azərbaycandakı səfiri Li İn-Yonq BDU-da qonaq olub**
→Səh.3



**BDU ilə Kembric Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanacaq**
→Səh.3



**BDU-nun əməkdaşları şəhid general-mayor Polad Həşimovun ailəsini ziyarət ediblər**
→Səh.9



## BDU və "ARB 24" telekanalı arasında əməkdaşlıq müqaviləsi imzalanıb

Bakı Dövlət Universiteti və "ARB 24" telekanalı arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb.

Sənədi BDU-nun rektoru Elçin Babayev və "ARB 24" telekanalının direktoru Radik İsmayılov imzalayıb.

İmzalanma mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Universitetin İnkişaf Strategiyasına əsasən, ən müasir tədris texnologiyalarının tətbiq olunması nəzərdə tutulur. Əsas məqsəd tədris texnologiyalarının düzgün qurulması və yüksək ixtisaslı kadrların hazırlanmasıdır: "Jurnalistika fakültəsinin tələbələri nəzəri biliklər əldə etməklə yanaşı, praktik bacarıqlarını möhkəmləndirməlidirlər. Jurnalistika fakültəsinin formalaşmış ənənələri var. Mövcud ixtisasların təkmilləşdirilməsi, yenilərinin açılması da nəzərdə tutulur. Bu baxımdan "ARB 24"lə əməkdaşlıq jurnalistika üzrə tədrisin yüksək səviyyədə təşkilinə töhfə verəcək. Tələbələri bu prosesdə fəal olmağa çağırıram".

"ARB 24" telekanalının direktoru Radik İsmayılov isə rəhbərlik etdiyi qurum barədə ətraflı məlumat verib və qeyd edib ki, "ARB 24"ün kadr siyasətində Jurnalistika fakültəsinin məzunlarına böyük önəm verilir. Telekanalın yaradıcı heyətinin yarısı Jurnalistika fakültəsinin məzunlarıdır: "Jurnalistika fakültəsində alınan təhsilin faydasını görməkdəyik. Fakültənin məzunları peşə etikasından kənar davranışlara demək olar ki, yol vermirlər və xəbər prinsiplərinə daha çox əməl edirlər".

Qeyd edək ki, müqavilə çərçivəsində BDU-nun Jurnalistika fakültəsində müxtəlif təlimlər keçiriləcək, bakalavr və magistrantlar üçün təcrübə proqramları təşkil ediləcək. Tədris proqramını uğurla başa vuran iştirakçılara sertifikat veriləcək və onların yarısı "ARB 24"də işlə təmin olunacaq.

Əməkdaşlıq müqaviləsi həm də birgə konfransların, sərgi, seminar və simpoziumların təşkil edilməsini nəzərdə tutur.



# BDU və DOST Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb

***Bakı Dövlət Universiteti ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi arasında birgə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov imzalayıblar.

BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Memorandum qarşılıqlı əməkdaşlığın geniş spektrlərini əhatə edəcək. DOST Agentliyinin 3 ildir yaranmasına baxmayaraq, artıq brendə çevrildiyini qeyd edən rektor vurğulayıb ki, son illər ölkədə sosial rifah halının yüksəldilməsi, vətəndaş məmnunluğunun artırılması və bürokratik əngəllərin aradan qaldırılması üçün mühüm addımlar atılır. Azərbaycanın həyata keçirdiyi sosial yönümlü layihələr təkcə rəğbət doğurmur, həm də bu təcrübə xarici ölkələr tərəfindən öyrənilir. DOST Agentliyi də belə müsbət təcrübələrdəndir.

Rektor bildirib ki, yüksək potensiala malik BDU ölkənin ən böyük və qədim universitetidir. Universitetin fakültələri DOST Agentliyi ilə imzalanmış Memorandum çərçivəsində həyata keçiriləcək layihələrin icrasına cəlb olunacaq: "DOST Agentliyinin imkanlarından tədris prosesində də istifadə olunacaq. BDU-nun Hüquq Klinikası və Sosial iş kafedrası DOST Agentliyinin həyata keçirdiyi işlərə yaxından yardım edə bilər. Bu sahə üzrə birgə elmi tədqiqatlar apara, sosial və psixoloji problemləri öyrənə, yay məktəbləri təşkil edə bilərik".




DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov isə qeyd edib ki, rəhbərlik etdiyi qurumun əsas məqsədi sosial təminat və məşğulluq sahəsində vətəndaş məmnunluğunun təmin edilməsidir. Bu sahədə tərəfdaş qurum kimi BDU-nun potensialına böyük ümid etdiyini bildirən Fərid Məmmədov bildirib ki, Agentliyin işçi heyətinin 21 faizi BDU məzunlarından ibarətdir: "BDU ilə qısa müddətdə müxtəlif sahələri əhatə edən əməkdaşlıq quracağıq. İmzalanan Memorandum hər iki qurum üçün müsbət nəticələr gətirəcək".

Qeyd edək ki, Memoranduma əsasən, tərəflər qarşılıqlı təcrübə mübadiləsi, birgə proqramların təşkili, tələbələrin dövlət xidmətləri sahəsində bilik və bacarıqlarının formalaşdırılması istiqamətlərində əməkdaşlıq edəcəklər. Memorandum innovativ təşəbbüslərin həyata keçirilməsini, araşdırma, statistika və təhlillərin aparılmasını, digər bu kimi məsələlər üzrə birgə fəaliyyətin təşkilini də əhatə edir.

Birgə əməkdaşlıq platformasının hazırlanması, dövlət xidmətləri sahəsində innovativ və yüksək texnologiyalara əsaslanan həll yollarının tapılması ilə bağlı maddələr də Memorandumda əksini tapıb.

Memorandum çərçivəsində BDU-nun bakalavr və magistrlərinin müxtəlif könüllü və təcrübə proqramlarında iştirakı təmin ediləcək. Bununla yanaşı, Agentliyin müvafiq əməkdaşları da Universitetin tədris-innovasiya infrastrukturundan yararlanacaq, DOST könüllüləri isə BDU-nun gənclər üçün təlim proqramlarında iştirak edəcəklər.

# Təhsin Mütəllimovun 90 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib

***Aprelin 20-də Bakı Dövlət Universitetində Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Təhsin Mütəllimovun 90 illik yubileyinə həsr olunmuş "Azərbaycan ədəbiyyatşünaslığının aktual problemləri" mövzusunda Respublika elmi konfransı öz işinə başlayıb.***

Konfransın açılış mərasimində giriş sözü ilə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Təhsin Mütəllimov Azərbaycan elminə və ədəbi fikir tarixinə misilsiz töhfələr verən böyük mütəfəkkir və əvəzolunmaz şəxsiyyətlərdəndir. Təhsin Mütəllimovun 90 illik ömrünün 70 ilə yaxını BDU ilə bağlıdır. Onun BDU-da yüksəkixtisaslı kadrların hazırlanmasında müstəsna xidmətləri var. Təhsin Mütəllimov Mir Cəlal, Abbas Zamanov, Əkbər Ağayev kimi nəhəng alimlərin çalışdığı akademik mühitdə peşəkar alim və tədqiqatçı kimi formalaşıb. İndiyədək Təhsin Mütəllimovun rəhbərliyi altında 20-dək fəlsəfə doktoru və elmlər doktoru müdafiə edərək alimlik dərəcəsi alıb. Görkəmli alimin səmərəli fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 1991-ci ildə "Əbdürrəhim bəy Haqverdiyevin poetikası" kitabına görə Azərbaycan Respublikasının Dövlət mükafatına, 2017-ci ildə isə Əməkdar elm xadimi fəxri adına layiq görülüb. 2019-cu ildə "Bakı Dövlət Universitetinin 100 illiyi" yubiley medalı və "3-cü dərəcəli əmək ordeni" ilə təltif olunub. Elçin Babayev Təhsin Mütəllimovun yaşının müdrik çağında da əsl elm fədaisi kimi yorulmadan çalışdığını, zəngin təcrübəsi ilə gənclərin yoluna işıq saldığını deyib.



ADA Universitetinin rektoru Hafiz Paşayev çıxışında Təhsin Mütəllimovun Mir Cəlalın ən sevimli tələbələrindən biri olduğunu və onu öz övladı kimi sevdiyini vurğulayıb: "Mir Cəlalın bütün tələbələri ona ailə başçısı kimi yanaşırdılar, tez-tez bizə gəlirdilər. Bu, çox isti və incə münasibət idi. Mən Təhsin Mütəllimovu Mir Cəlalın təkcə tələbəsi kimi deyil, oğlu kimi tanıyıram".

Hafiz Paşayev qeyd edib ki, Təhsin Mütəllimovun Mir Cəlalın yadigarı olan "Ədibin evi"nin formalaşmasında da əməyi böyükdür: "Bura bir ədəbiyyat ocağıdır. Mən ədəbiyyatşünasları bu ocaqdan daha çox istifadə etməyə çağırıram. Biz Azərbaycan ədəbiyyatını daha geniş təbliğ etməliyik. Bu baxımdan Təhsin Mütəllimov təkcə tələbələrə, ədəbiyyata, BDU-ya deyil, bütün universitetlərə lazımdır".

Daha sonra çıxış edən BDU-nun Rus ədəbiyyatı tarixi kafedrasının müdiri, professor Ədibə Paşayeva, akademiklər Teymur Kərimli, Vasif Babazadə, BDU-nun Jurnalistika fakültəsinin Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi Əlizadə Əsgərli Mir Cəlal məktəbi, bu məktəbin ən layiqli davamçılarından olan Təhsin Mütəllimovun həyatı və elmi-pedaqoji fəaliyyəti ilə bağlı fikirlərini bildirib, xatirələrini bölüşüblər.

Tədbirin sonunda çıxış edən Təhsin Mütəllimov 90 illik ömrünü ləyaqətlə yaşadığını deyib: "Bir dəfə tələbələrimdən biri "Əsl müəllim necə olmalıdır?" deyə soruşdu. Dedim ki, müəllim olmaq üçün əvvəlcə şəxsiyyət və insan olmaq lazımdır. Müəllim gərək öz tələbələrinə balası kimi baxsın. Ustadım Mir Cəlal vaxtilə deyərdi: Bu Universitetdə ən böyük adam tələbədir, tələbəni incitmək olmaz. Ustadımın bu sözü həmişə yadımda qalıb. Müəllimlik fədakarlıqdır".

# BDU-da Elmi Şuranın növbəti iclası

***Aprelin 21-də Bakı Dövlət Universitetində Elmi Şuranın növbəti iclası keçirilib.***

Elmi Şurada çıxış edən BDU-nun rektoru Elçin Babayev Universitetdə "Şuşa ili" çərçivəsində bir sıra mühüm tədbirlər və konfransların keçiriləcəyini, elmi tədqiqatların aparılacağını qeyd edib. Bildirib ki, 2023-cü ildə Şuşa şəhərinin "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunması hər kəs üçün fəxrdir. Rektor BDU kollektivinin Şuşaya səfərinin nəzərdə tutulduğunu və bunun üçün təşkilati işlərin həyata keçirildiyini vurğulayıb.

Sonra BDU-nun nəzdində Tətbiqi riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru Fikrət Əliyev rəhbərlik etdiyi qurumun 2021-ci ildəki fəaliyyətinə dair hesabat təqdim edib. Bildirib ki, ötən il institutda 3 mövzu üzrə 16 iş yerinə yetirilib. İnstitutda ilk dəfə pilotsuz uçan dronların riyazi modeli qurulub və onun havaya qaldırılması alqoritmləri işlənilib. Həmçinin bunların kompüter simulyasiyası hazırlanıb.

Daha sonra BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecin direktoru Səhər Orucova təhsil müəssisəsinin 2021-ci il üzrə hesabatını açıqlayıb. Səhər Orucova qeyd edib ki, ötən il oktyabrın 19-da BDU-nun rektorunun əmri ilə İqtisadiyyat və Humanitar Kollecin yeni strukturu təsdiq edilib. Hazırda Kollecdə 120 müəllim, 75 işçi olmaqla 195 nəfər işçi çalışır. Kollecdə ümumi orta təhsil bazasında 8, tam orta təhsil bazasında 6 ixtisas üzrə qəbul aparılıb. Səhər Orucova bildirib ki, ötən il iyunun 1-dən Kollecdə bir sıra islahatlar həyata keçirilib. Pedaqoji Şurada Kollecin yeni strukturu və ştat cədvəli təsdiq edilib. Yeni tədris proqramları, dərs vəsaitləri və dərsliklər hazırlanıb. Mütəmadi olaraq fənn birləşmə komitələri ilə görüşlər keçirilərək tədris prosesində islahatlarla bağlı müzakirələr aparılıb. Bu ildən Kollecin qəzeti və jurnalının çapı nəzərdə tutulur.

Hər iki hesabat səsə qoyularaq qəbul edilib. Elmi Şuranın sonunda cari məsələlərə baxılıb.

# Koreya Respublikasının Azərbaycandakı səfiri Li İn-Yonq BDU-da qonaq olub



*Aprelin 15-də Koreya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Li İn-Yonq Bakı Dövlət Universitetində qonaq olub.*

Səfir əvvəlcə BDU-nun rektoru Elçin Babayevlə görüşüb. Rektor səfirə Azərbaycanın ən böyük universiteti olan BDU, burada həyata keçirilən tədris və elmi tədqiqatlar barədə məlumat verib. Bildirib ki, Universitetdə elmin bütün sahələri üzrə kadr hazırlığı həyata keçirilir. Son zamanlar BDU-da elektronlaşma, elmi nəticələrin tətbiqi və kommersiyalaşdırılması istiqamətində geniş işlər görülür.

Görüşdə Koreya universitetləri ilə ikili diplom, elmi əməkdaşlıq sahələrində əməkdaşlıq imkanları müzakirə edilib, BDU-da Koreya hökuməti tərəfindən yaradılan strukturların fəaliyyətinin daha da genişləndirilməsi, bu ilin oktyabr ayında Universitetdə "Koreya günləri"nin keçirilməsi barədə razılıq əldə olunub.

Sonra səfir Heydər Əliyev lektoriyasında Şərqşünaslıq, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültələrinin müəllim-tələbə heyəti üçün "Koreya və Azərbaycan arasındakı diplomatik münasibətlərin qurulmasının 30 illiyi: mübadilə vəziyyəti, əlaqələrin perspektivləri və gələcəkdə qarşıda duran məsələlər" mövzusunda mühazirə oxuyub.

Səfir qeyd edib ki, Azərbaycanla Koreya arasında 1992-ci ilin martın 23-də qurulan diplomatik əlaqələr son illər müxtəlif sahələr üzrə yüksələn xətlə inkişaf edir. Azərbaycanın son illər sürətlə inkişaf edərək Cənubi Qafqazın ən qabaqcıl ölkəsinə çevrildiyini vurğulayan səfir bildirib ki, gələcəkdə Azərbaycan-Koreya iqtisadi əlaqələri daha da inkişaf edəcək.

Səfir iki ölkə arasında əlaqələrin daha da gücləndirilməsində təhsil sahəsində əməkdaşlığın xüsusi rol oynadığını və Koreya dilini, koreyaşünaslığı tədris edən BDU ilə əməkdaşlığın çox faydalı olacağına inandığını qeyd edib.

Səfir Li İn-Yonq daha sonra Azərbaycan-Koreya İnformasiya Təminatı Mərkəzi ilə tanış olub.

# BDU və Pakistanın Pir Mehr Əli Şah Arid Kənd Təsərrüfatı Universiteti arasında Anlaşma Memorandumu imzalanıb

*Aprelin 1-də Bakı Dövlət Universiteti və Pakistanın Pir Mehr Əli Şah Arid Kənd Təsərrüfatı Universiteti arasında Anlaşma Memorandumu imzalanıb.*

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Pir Mehr Əli Şah Arid Kənd Təsərrüfatı Universitetinin rektoru Qamar-uz-Zaman imzalayıblar. Anlaşma Memorandumu tərəflər arasında birgə elmi araşdırmaların və mübadilə proqramlarının təşkil edilməsini nəzərdə tutur.

# BDU ilə Kembric Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanacaq

*Aprelin 4-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Kembric Mərkəzi Asiya Forumunun direktoru Montu Saksena və onu müşayiət edən nümayəndə heyəti ilə görüşüb.*

Görüş zamanı hər iki universitet arasında təhsil və elm sahələrində ikitərəfli əlaqələrə diqqət yetirilib. BDU-nun rektoru ölkəmizdə son illər elm-təhsil-innovasiya istiqamətində görülən işlərdən, nailiyyətlərdən söz açıb. Görüşdə təhsil-elm-tədqiqat-innovasiya mərkəzlərindən birinə çevrilməkdə olan BDU üçün Kembric Universiteti ilə əməkdaşlığın əhəmiyyətindən danışılıb. Qonaq öz növbəsində ali təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə yardım edəcəyini bildirib. Professor Montu Saksena Kembric Universitetinə daxil olan qurumların, xüsusilə də Kavendiş laboratoriyasının fəaliyyəti çərçivəsində müvafiq sahələrdə ikitərəfli əməkdaşlıqda maraqlı olduqlarını ifadə edib. İkitərəfli əməkdaşlığın qurulması və gücləndirilməsi istiqamətində qarşıda duran vəzifələr, real perspektivlər müzakirə edilib. Sonda qısa müddət ərzində universitetlər arasında birgə fəaliyyət planının və ikitərəfli əməkdaşlıq müqaviləsinin hazırlanması razılaşdırılıb.



Sonra professor Montu Saksena BDU-nun professor-müəllim heyəti qarşısında "İnkişaf və innovasiyanın elmi aspektdən dəyərləndirilməsi" mövzusunda məruzə edib. BDU-nun rektorunun strateji inkişaf və əlaqələr üzrə müşaviri Əli Nağıyev təhsil-elm-innovasiya vəhdətində Azərbaycanın ali təhsil məkanı ilə bağlı aparılan keyfiyyət araşdırmasının nəticələrini qonaqlarin və seminar iştirakçılarının diqqətinə çatdırıb. BDU-da yaradılan Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin fəaliyyətinə diqqət çəkən Əli Nağıyev bildirib ki, BDU artıq tədqiqat universitetinə çevrilməkdədir. O, bu istiqamətdə beynəlxalq əməkdaşlığın və strategiyanın tələblərinə uyğun olaraq Universitet-sənaye-biznes əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinin önəmini vurğulayıb.

Kembric Universitetinin Mərkəzi Asiya Forumunun professoru Montu Saksena rəhbəri olduğu forum haqqında məlumat verib, onun üzvlərinin dünyada tanınmış elm adamları olduğunu diqqətə çatdırıb. Daha sonra Kembric Universitetinin Fizika fakültəsinin Kavendiş laboratoriyasının fəaliyyəti barədə danışaraq qeyd edib ki, burada yüksək enerjilər fizikası, astrofizika, bioloji və tibbi fizika, polimerlər və nanohissəciklər fizikası, optika və molekulyar fizika, maddə quruluşu, yarımkeçiricilər fizikası və nəzəri fizika sahələrində tədqiqatlar aparılır.

Montu Saksena qeyd edib ki, ölkəmizə səfərində məqsəd Azərbaycanın təhsil müəssisələrində tədqiqat işinin gücləndirilməsi istiqamətində Kembric Universitetində araşdırma və tələbə mübadiləsinin həyata keçirilməsi, həmçinin azərbaycanlı araşdırmaçıların Kembric Universitetinin Kavendiş laboratoriyasında tədqiqat aparmasına şərait yaradılması üçün fizika sahəsi üzrə ixtisaslaşmış təhsil müəssisələri ilə əməkdaşlıq perspektivlərinin müzakirəsidir.

# Polşanın Jeşov Universitetinin şöbə müdiri BDU-da mühazirə deyib

*Aprelin 18-də Bakı Dövlət Universitetinin SABAH mərkəzinin təşkilatçılığı, Hüquq fakültəsinin mülki proses və kommersiya hüququ kafedrasının dəstəyi ilə "Hüqüqşünas masası"nda "Azərbaycan Respublikası və Polşa Respublikasında mülki mühakimə icraatının səmərəliliyinin artırılması sahəsində islahatlar (Avropa Şurasının standartları prizmasından)" mövzusunda dəyirmi masa keçirilib.*



Tədbiri Mülki proses və kommersiya hüququ kafedrasının müdiri Elçin Xələfov açaraq, Azərbaycan və Polşa arasında mövcud olan əlaqələr, hüquq sisteminə dair Avropa ölkələrinin təcrübəsi, mülki-prosessual hüququn əsasları, mülki prosesin mərhələləri, mülki-prosessual qanunvericiliyə müstəqillik dövründə edilən dəyişikliklər haqqında məlumat verib.

Sonra Polşanın Jeşov Universitetinin hüquqi işlər üzrə şöbə müdiri Anna Koşçiolek Polşa qanunvericiliyində mülki prosesdə tərəflərin hüquqları, elektron məhkəmələrin vəziyyəti, Avropa İttifaqında mülki qanunvericiliyə edilən dəyişikliklər barədə danışıb. Polşalı qonaq onlayn məhkəmə proseslərinə baxış və tərəflərin dinlənilməsinə keçidin ölkə qanunvericiliyində implementasiya üsulları, Polşa mülki prosessual və maddi hüquq normaları, hüquq sistemindəki çatışmazlıqlar kimi məsələlərə aydınlıq gətirib.

Vəkillər Kollegiyasının üzvü Natavan Rüstəmova Azərbaycan Respublikasında real məhkəmə prosesində mülki prosessual qanunvericiliyin tətbiqindən bəhs edib, bu sahədə mütəxəssis kimi formalaşmağın vacibliyini vurğulayıb.

Dəyirmi masada Təhsil Nazirliyi SABAH İcra Komitəsinin Tədris işləri üzrə rəhbər müavini Eldar Qocayev Azərbaycan və Polşa Respublikalarının mülki prosessual qanunvericiliyinin müqayisəli təhlilini aparıb.

Dəyirmi masa interaktiv formada davam edib.

Sonda SABAH qruplarının tələbələri polşalı qonağa hədiyyə təqdim ediblər.

# Görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anım günüdür

***15 Aprel Azərbaycan tibb elminin inkişafına misilsiz töhfələr vermiş, Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım Əliyevanın anım günüdür.***

Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Naxçıvan Muxtar Respublikasında anadan olub. 1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Göz xəstəlikləri kafedrasının dosenti, professoru, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, Oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışıb.



Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Akademik Zərifə Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmoloqu" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

Zərifə Əliyeva 1980-ci ildə Azərbaycanın əməkdar elm xadimi, 1981-ci ildə isə SSRİ Tibb Elmlər Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüş ilk qadındır. Azərbaycanda tibbi deontologiyanın inkişafında böyük rolu olan akademik Zərifə Əliyevanın tibbi etika və deontologiyaya dair baxışları "Yüksək əqidə" (həkimlik etikası) əsərində əks olunub.

Zərifə Əliyeva yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib.

O, 1985-ci il aprelin 15-də Moskva şəhərində əbədiyyətə qovuşub.

Akademik Zərifə xanım Əliyeva elm, təhsil, səhiyyə sahələrində, eləcə də ictimai-siyasi həyatda misilsiz xidmətlərinə görə xalqımızın qəlbində, ölkəmizin tarixində görkəmli alim, nümunəvi, qayğıkeş pedaqoq, şəfqətli həkim, nurlu Azərbaycan xanımı kimi qalacaq, daim anılacaq, onun şərəfli ömür yolu və zəngin irsi həmişə örnək olacaq.

Akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini ehtiramla anırıq. Allah rəhmət eləsin!

# Bəşəri ideyalar carçısı, böyük alim - Mir Cəlal Paşayev

***Mir Cəlal Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanda (Ərdəbil ostanı) yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçib. Mir Cəlal 10 yaşında olanda atası vəfat edib və o, böyük qardaşının himayəsində yaşayıb.***

Mİr Cəlal Paşayev 1918-1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil alıb və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəllimliyinə daxil olub. Tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilib. Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik edib və millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini mənimsədib. Bu mənada Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri misilsizdir.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. Sözün gücünə güvənib, onun böyüklüyünə baş əyən sənətkarın könüllərə yanğı salmış "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə əbədiyaşarlıq qazandırıb. Onun böyük zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir.

Bakı Dövlət Universitetinin sevimli müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayan Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını, tələbələrini sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əz-




bəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir".

XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınıb. Mir Cəlal öz yazı üslubu ilə həmkarlarından fərqlənərək Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib. XX əsr Azərbaycan ədəbiyyatının bir sıra nailiyyətləri bilavasitə Mir Cəlal Paşayevin adı ilə bağlıdır. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub. Təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı yox idi. 1928-ci ildə mətbuatda ilk şeirləri ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunub. O dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" və digər hekayələrini çap etdirib. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabları işıq üzü görüb.

Mir Cəlalın ilk irihəcmli əsəri - "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunub. Hələ yarım əsr bundan əvvəl akademik Məmməd Arif yazırdı: "Mir Cəlal "Dirilən adam"la diqqətli bir realist yazıçı

**26 aprel XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasından 114 il ötür**

olduğunu göstərib".

"Bir gəncin manifesti" əsəri isə yazıçının həyatında böyük bir dönüş yaradıb, ədəbi zirvəyə aparan yoluna cığır açıb və müəllifə böyük oxucu auditoriyası qazandırıb. 1940-cı ildə "Uşaqgəncnəşr"də kitab halında kütləvi tirajla buraxılan bu əsər oxucu tələbatına görə sonrakı illərdə də təkrar çap edilib. "Bir gəncin manifesti" bu gün də qəlbləri riqqətə gətirir. Doqquz dəfə müxtəlif illərdə ayrıca kitab halında nəşr olunan bu əsər Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da sevilir.

Mir Cəlalın "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınıb. Yazıçının "İnsanlıq fəlsəfəsi" (1961) kitabında toplanmış hekayələri də böyük tərbiyəviəxlaqi əhəmiyyətə malikdir. "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Vicdan mühakiməsi", "Vicdan əzabı", "Hesab dostları", "Təsadüf, ya zərurət", "Qocaların uşaq söhbəti" və digər hekayələrində isə real həyat lövhələri, fəlsəfi düşüncələr əks olunub. İndiyədək yazıçının 70-dən çox kitabı çap edilib.

Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb. Füzuli poeziyasının qüdrətinə heyran olan, ümumiyyətlə, klassik ədəbiyyata qəlbən bağlı Mir Cəlal Paşayev 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirib.

Mir Cəlal Paşayevin tanınmış tədqiqatçı Firudin Hüseynovla birgə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" əsəri uzun illərdir ki, ali məktəblər üçün dərs vəsaitidir. Bu dərslikdə XX əsrin böyük ədəbi şəxsiyyətləri, onların yaradıcılığı, ədəbi mühitə gətirdikləri yeniliklər haqqında əhatəli elmi fikirlər əks olunub.

1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşmuş, gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, özündən sonra gələn nəsillərə də örnəkdir. "UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. UNESCO-nun Parisdə yerləşən iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. Bu, həm də Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür.

Mir Cəlal Paşayev insanlıq, xeyirxahlıq, müəllimlik, ədəbiyyatşünaslıq məktəbi yaradıb. Bu məktəbin işığı sonrakı nəsillərin yoluna daim işıq salır. Böyük ziyalımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq!

# Filologiya fakültəsinin tələbələri "Ədibin evi"nə ekskursiya ediblər



***Aprelin 26-da Filologiya fakültəsinin tələbələri görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin anadan olmasının 114-cü ildönümü münasibətilə "Ədibin evi"nə ekskursiya ediblər.***

Tələbələrə fakültənin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov rəhbərlik edib.

Ekskursiya zamanı tələbələr görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayevin həyat yolu, yaradıcılığı haqqında məlumatlar əldə edib, ona dair bəzi şəxsi əşyalarla, haqqında yazılmış kitablarla tanış olublar. Həmçinin onlar "Ədibin evi" Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyevanın təqdimatında "Ədibin evindən hekayələr" layihəsi çərçivəsində bir neçə hekayəni dinləyiblər.

Sonra muzey əməkdaşları tələbələri maraqlandıran sualları cavablandırıblar.

Tələbələr onların marağına səbəb olan "Ədibin evindən hekayələr" layihəsinə qatılmaq arzusunda olduqlarını bildiriblər. Qeyd edək ki, 2017-ci ildə açılan "Ədibin evi" Mir Cəlal Paşayevin 1929-1941-ci illərdə İçərişəhərdə yaşadığı mənzildir.

# Yüz qırx ilin klassik dərsliyi - "Vətən dili"

***Vətən sözü müqəddəs bir anlayış olduğu kimi, ona bağlı ifadələr də qiymətli və əziz olur. 140 il bundan əvvəl - 1882-ci ildə Tiflisdə nəşr olunan "Vətən dili" dərsliyi Vətən və ana dili sözlərinin müqəddəslik məzmununu bu gün də özündə qoruyub saxlamaqdadır. Elə buna görədir ki, klassik irsimizə bağlı bir sıra nəşrləri tarixin arxivlərindən çıxarıb yeni nəşr formatında müasirlərimizə təqdim edən, "Azərbaycan xalqının tarixi mirasını qorumaq və gələcək nəsillərə ötürmək işinə töhfə verməkdən qürur duyan" (Hafiz Paşayev) ADA Universiteti "Vətən dili" dərsliyini yenidən çap etmişdir.***




*"Vətən dili" 1882-ci ildə "Qafqaz Kitabı Ticarəti" nəşriyyatında çap edilmişdir. Kitabın ilk səhifələrini "təzə qayda" ilə tərtib olunmuş əlifba təşkil edir. Əlifbanın hər hərfi həmin səsə bağlı sözlərlə müşayiət olunur ki, bu da, əslində özündən sonrakı dərsliklərə nümunə kimi dəyərləndirilə bilər.*

"Vətən dili" hansı keyfiyyətləri ilə indinin özündə belə diqqəti cəlb etmişdir? Bu suala dərsliyin yenidən nəşri ideyasının müəllifi, ADA Universitetinin rektoru Hafiz Paşayev kitaba yazdığı "Ön söz"də belə cavab verir: "Vətən dili" diqqəti ilk olaraq öz milliliyi, dilinin özəlliyi, səhifələrindəki ədəbi nümunələrinin səmimiliyi, xəlqiliyi, uğurlu seçilmiş atalar sözü, tapmacaları ilə cəlb edir". Belə klassik bir dərslik "azərbaycanlı uşaq və müəllimlər üçün mükəmməl dərs vəsaiti kimi əvəzsiz mövqeyə sahiblənmişdir". Bu dərslik ilk mükəmməl nümunə kimi sonralar Vətən dili, ana dili ilə bağlı yaradılan kitablara nümunə olmuşdur. Əgər bu kitab Azərbaycanın klassik maarifçiləri olan Məhəmməd bəy Mahmudbəyovun, Süleyman Sani Axundovun, Fərhad Ağazadənin, Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin... uşaq çağlarında dilimizi, folklorumuzu, milli kimliyimizi öyrəndikləri ilk istinad yeri olubsa, belədə onun əvəzsizliyindən bir daha söz salmaq artıq olardı. "Vətən dili"nin müasirlərimiz, yeni nəsil üçün də gərəkli olduğunu yeni nəşrin anonsu çox doğru olaraq belə təqdim edir: "Nəşrindən 140 il keçsə də, yaşından asılı olmayaraq, özünü azərbaycanlı sayan hər kəs, bir çox folklor nümunələrimizin orijinal formada bir yerə toplandığı bu kitabla yaxından tanış olmalı, ondan əcdadımızın hikmətini, vətən eşqini duymalıdır".

"Vətən dili" kitabı iki hissədən ibarətdir. I hissənin müəllifi Azərbaycanı və onun dilini çox sevən, milli ənənələrimizə, folklorumuza yaxından bələd olan, Qori Seminariyasında neçə-neçə həmyerlimizin yetişməsində misilsiz əməyi olan Aleksey Çernyayevskidir. II hissəni isə A.Çernyayevski Səfərəli bəy Vəlibəyovla birgə ərsəyə gətirmişdir. Kitabdakı şeirlər həmin dövrün maarifçi realisti Həsənağa xan Qaradağskinindir. Qeyd edək ki, şair H.Qaradağski dərsliyi transliterasiya edən, müasir oxucu üçün aydın dilə salan, lüğət və digər qeydlərin müəllifi Vüqar Qaradağlının babasının babasıdır. Kitabın II hissəsini Vüqar Qaradağlı Sayman Aruzla birgə hazırlamışdır.

Belə bir faktı da xüsusi qeyd etməliyik ki, "Vətən dili" dərsliyi, əslində bundan əvvəl də transliterasiya ilə nəşr edilmişdir. Lakin əvvəlki nəşrlər daha çox elmi mahiyyətdə olmuş və bir çox elmi yanaşma mətnləri ilə, geniş elmi izahları, çoxsaylı cədvəlləri, minlərlə sözdən ibarət tezlik lüğəti ilə çoxsəhifəli bir nəşr formatında olmuşdur. Vüqar Qaradağlı kitaba yazdığı "Nəşrə dair bir neçə söz"dəki qeydlərində yeni - III nəşrin meydana gəlmə zərurətini belə əsaslandırır: "Sözügedən nəşrlər həm elmi - akademik səciyyə kəsb etməsi və tirajının az olması, həm də transliterasiyasının fonetikliyi, fiziki olaraq ağır çəkisi onların geniş kütlə tərəfindən istifadəsində çətinliklər yaradırdı. Hiss olunurdu ki, "Vətən dili"nin daha rəvan, oxunuşa ağırlıq gətirən haşiyələrdən xali variantına ehtiyac var". Və Vüqar Qaradağlı Hafiz Paşayevin bu kitabın yenidən və həm də geniş kütlə üçün nəşri ilə bağlı ideyası əsasında "Vətən dili"nin belə təkmil, orijinal nəşrini hazırlayıb ortaya qoymuşdur.

İndi biz bu məqamda "Vətən dili"nin məzmunu və mahiyyəti haqqında daha aydın söhbət aça bilərik.

"Vətən dili" 1882-ci ildə "Qafqaz Kitabı Ticarəti" nəşriyyatında çap edilmişdir. Nəşrin səhifəsində belə bir qeyd var: "Kitab mənim müsəlman tələbələrimə həsr edilir". Zaqafqaziya müəllimlər seminariyasının inspektoru A.O.Çernyayevskinin dərsliyin tərtibçisi (müəllifi) kimi belə bir qeydə həm haqqı çatır, həm də bu qeydlə seminariyadakı azərbaycanlı tələbələrinə öz sevgisini ifadə edir.

Kitabın ilk səhifələrini "təzə qayda" ilə tərtib olunmuş əlifba təşkil edir. Əlifbanın hər hərfi həmin səsə bağlı sözlərlə müşayiət olunur ki, bu da, əslində özündən sonrakı dərsliklərə nümunə kimi dəyərləndirilə bilər. Daha sonra kitabda "Mübtədilər oxumaqdan ötrü (ibtidai sinif şagirdləri üçün oxu) bir neçə nağıl və hekayə" təqdim olunur. Dərsliyin klassik formatına uyğun olaraq hər bir nağıl və ya hekayədən sonra şagirdin mətni daha yaxşı qavraması və yadda saxlaması üçün mətnə aid suallar və məsələlər təqdim olunur. Bu təqdimat formatı da özündən sonrakı dərsliklərə məktəb rolunu oynayır.

Daha sonra eyni təqdimat formatında "Nəsx (ərəb yazı növlərindən biri) xəttində və Qurani-Şərifdən olan dərs mətnləri kitaba salınır. Burada Qurandan gətirilən surələr xüsusi maraq doğurur".

Kitabın II cildi (hissəsi) belə bir problemə həsr olunub: "Türki-Azərbaycan dilində təlimi-qiraət (qiraət təlimi), inşa və imla məşğuliyyəti üçün kitabçadır(dərslikdir)". A.O.Çernyayevski və S.H.Vəlibəyovun bu kitabının o dövrün səlahiyyətli idarələri tərəfindən təsdiqi, senzorun icazəsi ilə "Kəşkül" mətbəəsində çap edildiyi ayrıca qeyd olunur. Müəlliflər əsərin əvvəlində təqdim etdikləri "Müqəddimə" hissəsində dərsliyin ümumi mahiyyətini açıqlayır, buradakı yazıların çox maraqlı olduğuna görə bu hissənin "üçüncü sənəyə" də yaraya biləcəyini vurğulayırlar. Həmin "Müqəddimə"də dilimizin müasir problemləri ilə də səsləşən bir abzası olduğu kimi təqdim edirik: "Zənnimizə görə, bu təlifin (əsərin) dili bir para (bəzi) müsəlman üdəba və üləmalarına (ədib və alimlərinə) ifrat (artıq dərəcədə) sadə görünəcəkdir, çünki onların rəy və nəzərlərinə görə fəsihanə (təmtəraqlı, gözəl) ibarələr (söz birləşmələri) gərəkdir dolu olsun ərəbi və farsi kəlmələri ilə. Hətta bir para (bəzi) alimlərin təsəvvürünə görə, bir türk (Azərbaycan türkü) türkcə (Azərbaycan türkcəsində) bilmək xahiş etsə (istəsə), gərəkdir ki, qabaqca (əvvəl) fars və ərəbcə təhsil etsin. Amma gərəkdir bu barədə bizləri məzur (üzrlü) tutub bunu nəzərə alsınlar ki, həmin kitabça (dərslik) ancaq əlifbanı qurtarıb qiraətə yeni şüru edənlər (başlayanlar) üçündür".

Göründüyü kimi, burada həm şagirdlər üçün yazılan dərsliyin aydın dilə malik olmasının vacibliyi, həm də ana dilimizin adının tarixi formatının bu gün üçün də aktual olduğu maraq doğurur.

*Dərslikdə o dövr üçün də, bu günümüz üçün də çox maraqlı mövzular yer alıb. İyirmi altı anlayışın hekayətlərdə izahını təqdim edən bu səhifələr ustad pedaqoqların bütün zamanların uşaqları üçün təqdim etdikləri qiymətli mətnlərdir.* Məsələn, kitabda təlim və oyun şeyləri, məktəb, lövhə, qab-qacaq və ev şeyləri, xörək və içki, geyim, ev və çöl heyvanları, heyvanların, quşların növləri, taxıl məhsulları, mədəniyyət, həftə günləri, fəsillər, ölçü, çəki, peşə, yaxşılıq və yamanlıq və s. kimi onlarca anlayışın sadə ana dilində izahı - həm də uşağa maraqlı gələcək mətnlərlə izahı bu günün dərsliklərinə nümunə ola bilər. Dərslikdə izah edilən bəzi anlayışların nə qədər vacib olduğuna və necə aydın dildə yazıldığına misal kimi aşağıdakı nümunəyə diqqət edək: "Qurban bayramı zilhiccə ayının sonuncu günüdür. Bu bayram dinimizcə vacib və əziz bayramların ümdəsidir (ən əsasıdır). Bu gündən Həccdə olan müsəlmanlar üçün vacibdən (şəriətlə vacib buyurulan) əməllər vardır. Cümləsindən (onlardan) biri də Minada (Kəbə qurbangahında) qurban kəsməkdir. Müctəhitlərdən (ruhani alimlərdən) bəziləri Həccdə olmayanlara qurban kəsməyi yenə də vacib bilirlər. Buna görə müsəlmanlardan az adam tapılır ki, o mübarək gündə qurban kəsməsin. Qurban şəriətcə üç hissəyə bölünür: bir payı füqəranın (kasıbların), ikinci qonşuların, üçüncü ev sahibinindir.

Ramazan bayramı kimi bunda da xəlayiq (camaat, xalq) məscidi-cameyə və ya səhraya (açıq yerlərə) toplanıb namaz qılınır, moizə olunur və xütbə oxunur.

Bu gün də qurban kəsmək şüarı (ənənəsi, mərasimi) Peyğəmbərimizin (s) ən ulu babası olan İsmail peyğəmbərin qurban aparılmağına və əvəzində Haqq-taala tərəfindən qoç gəlməyinə işarədir. Buna səbəb dəxi (də) o idi ki, ol (o) Həzrətin nəslindən gərək idi Peyğəmbərimiz (s) - Axırzaman peyğəmbəri (sonuncu peyğəmbər) - vücuda (dünyaya) gəlməymiş".

Bu kitabın Bakı Dövlət Universitetində tələbə və müəllimlərə təqdimatı ilə bağlı təəssüratımızı da oxucularla bölüşmək istərdik.

Bu günlərdə təşkil edilmiş tədbir-təqdimatı giriş sözü ilə Universitetin rektoru Elçin Babayev açdı və doğrusu, onun bu giriş sözündən bir daha aydın oldu ki, elmi fəaliyyətilə bağlı fizik olan bu alim səriştəli bir filoloq kimi "Vətən dili"nin bütün istiqamətləri, xüsusilə onun həm o dövr, həm indiki günlərimiz üçün millilik keyfiyyəti üzərində dayandı. Kitabın yeni nəşrinin təşəbbüskarı və bu təşəbbüsü Vətənə, millətə məhəbbət hissləri ilə gerçəkləşdirən Hafiz Paşayevə, kitabı transliterasiya edən, lazımı qeyd və şərhləri ilə müasirləşdirən Vüqar Qaradağlıya, Sayman Aruza Bakı Dövlət Universitetinin çoxminli kollektivi adından təşəkkür etdi. "Vətən dili"nin müasirlərimiz üçün çap edilən yeni nəşrinin bir sıra keyfiyyətləri haqqında təkcə filoloq alimlər deyil, həm də dəqiq elmlər sahəsinin görkəmli alimləri, filosof və tarixçilər maraqlı fikirlər səsləndirdilər. Bütün çıxışlarda "Vətən dili"nin ilk nəşrindən ötən 140 il sonra da milli düşüncəmizin, klassik dərslik formatına təsirinin birmənalı əhəmiyyəti vurğulandı. Yeni nəşrin müəllifi hesab edilən Vüqar Qaradağlı öz çıxışında bu dərsliyin filoloji, pedaqoji, milli xüsusiyyətlərinin tarixi qaynaqları üzərində dayandı və nəşrin ərsəyə gəlməsi prosesini açıqladı. Tədbir iştirakçıları kitabın təqdimatı prosesinin əhəmiyyətindən çox razı qaldıqlarını bildirdilər.

***Nizami CƏFƏROV,***
*akademik*

***Cahangir MƏMMƏDLİ,***
*Bakı Dövlət Universitetinin professoru*

# BDU-da Türkiyənin "Temrin" dərgisinin professor Şirməmməd Hüseynova həsr olunan xüsusi buraxılışının təqdimatı keçirilib

***Aprelin 7-də Bakı Dövlət Universitetində Türkiyədə nəşr olunan "Temrin" dərgisinin görkəmli Azərbaycan alimi, maarifçisi və pedaqoqu, professor Şirməmməd Hüseynova həsr etdiyi xüsusi buraxılışının təqdimatı keçirilib.***

Təqdimat mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev "Temrin" dərgisinin növbəti nömrəsinin bütün ömrünü milli mətbuatımızın tədqiqinə həsr edən Şirməmməd Hüseynova həsr olunmasının əlamətdar hadisə olduğunu deyib: "Şirməmməd Hüseynov əsl vətəndaş idi. O, bütün ömrü boyu Vətənə, xalqa, dövlətə ləyaqətlə xidmət edib, çağdaş jurnalistikamızın formalaşmasında müstəsna xidmətlər göstərib. Şirməmməd müəllim deyəndə yada həm də ömrünün 60 ilini Bakı Dövlət Universitetinə bağlamış və minlərlə jurnalistin müəllimi olmuş əsl ziyalı, dürüst və ləyaqətli insan düşür. Bütün bu keyfiyyətlər Şirməmməd müəllimin hamı tərəfindən sevilməsini şərtləndirirdi".

Rektor vurğulayıb ki, Şirməmməd Hüseynovun Xalq Cümhuriyyəti qurucularının fəaliyyətinə dair araşdırmalarının Azərbaycan tarixinin öyrənilməsində xüsusi əhəmiyyəti var. Elmi fəaliyyətini Azərbaycan mətbuat tarixinin öyrənilməsinə həsr edən Şirməmməd Hüseynov mətbuatşünaslığa dair 30-dan çox kitab və monoqrafiyanın, 800-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifidir. O, bir sıra dövlət mükafatlarına layiq görülüb, Prezident İlham Əliyevin sərəncamı ilə "Şərəf" ordeni ilə təltif olunub.




Şirməmməd Hüseynovun həyat yoldaşı Ülkər Hüseynova, Milli Məclisin deputatları Cavanşir Feyziyev, Sabir Rüstəmxanlı, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, AYB-nin katibi Səlim Babullaoğlu, BDU-nun Jurnalistika fakültəsinin Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli, şair, tərcüməçi Sayman Aruz, BDU-nun professoru Qulu Məhərrəmli, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, dekan müavini Samir Mirzəyev çıxışlarında Şirməmməd Hüseynovla bağlı xatirələrini bölüşüblər, onun gənc jurnalistlərin milli təəssübkeşlik, obyektivlik və prinsipiallıq ruhunda tərbiyə olunmasında əvəzsiz rolunu qeyd ediblər.

# MEDİA-nın icraçı direktoru və Audiovizual Şuranın sədri Jurnalistika fakültəsinin qonağı olublar

***Aprelin 8-də Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov və Audiovizual Şuranın sədri İsmət Səttarov Jurnalistika fakültəsinin qonağı olublar.***

Görüşdə BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev və professor-müəllim heyəti iştirak edib.

Qonaqlar əvvəlcə Jurnalistika fakültəsinin Tədris tele-radio studiyasında efir və montaj otaqları, audiovizual studiyaların və BDU TV internet kanalının işi ilə tanış olub.



Audiovizual Şuranın sədri İsmət Səttarov studiyanın praktik imkanlarından və yaradıcı mühitdən məmnunluğunu ifadə edərək müştərək layihələrin həyata keçirilməsini təklif edib. Bildirilib ki, Tədris tele-radiostudiyasının maddi-texniki potensialı əsasında müxtəlif formatlı proqramların hazırlanması mümkündür. Ölkənin radio və televiziya kanalları ilə əməkdaşlıq perspektivli layihələrin reallaşmasına imkan verəcək.

Üçtərəfli əməkdaşlıq imkanlarını yüksək qiymətləndirən MEDİA-nın icraçı direktoru Əhməd İsmayılov tələbələrin praktik fəaliyyətinin stimullaşdırılmasından danışıb. O, gələcəkdə MEDİA-nın dəstəyi ilə Jurnalistika fakültəsinin tələbələri üçün müsabiqə, treninqlərin və müxtəlif praktik seminarların təşkili barədə fikirlərini bildirib.

BDU-nun prorektoru Əliş Ağamirzəyev və Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev əməkdaşlığın jurnalist kadrların yetişdirilməsi istiqamətində faydalı nəticələr verəcəyinə əmin olduqlarını ifadə ediblər.

# BDU-nun əməkdaşları Baş Prokurorluqda "Natiqlik və sosial media ilə ünsiyyət" mövzusunda təlim keçiblər

***Aprelin 14-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə birgə mətbuat xidmətinin işçiləri və tabe prokurorluqlarda KİV-lə əlaqələrə məsul şəxslər üçün "Natiqlik və sosial media ilə ünsiyyət" mövzusunda qarışıq (əyani və distant) formada təlim keçirilib.***

Təlimlərin təşkil edilməsində məqsəd müvafiq sahədə fəaliyyət göstərən prokurorluq işçilərinin peşə biliklərinin artırılması və sosial media ilə peşəkar davranışın müasir tələblərə uyğunlaşdırılmasıdır.

Tədbirə təlimçi qismində Baş Prokurorluğun işçiləri ilə yanaşı, Medianın İnkişafı Agentliyi, Ədliyyə Akademiyasının əməkdaşları, Bakı Dövlət Universitetinin Jurnalistika və Filologiya fakültələrinin müəllim heyəti cəlb edilib.



Jurnalistika fakültəsinin Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti, Medianın İnkişafı Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası", Jurnalistika fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru Vüqar Əliyev "Xidməti məlumatların kütləvi informasiya vasitələrinə çatdırılma qaydası və onun nümayiş etdirmə üslubları", Jurnalistika fakültəsinin dekan müavini, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müəllimi Esmira Rövşənova "Sosial media üçün məlumatların hazırlanma metodikası", Filologiya fakültəsinin Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının müdiri, professor İlhamə Hacıyeva "Natiqlik qabiliyyətinin artırılması üçün nitq texnikası, vasitələri və priyomları" mövzularında iştirakçılar üçün təlimlər keçiblər.

# "Media sahəsində islahatların hüquqi əsasları" mövzusunda görüş keçirilib



***Aprelin 15-də Jurnalistika fakültəsində Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun "Media sahəsində islahatların hüquqi əsasları" mövzusunda görüşü keçirilib.***

Tədbirdə Medianın İnkişafı Agentliyinin əməkdaşları, Jurnalistika fakültəsinin professor-müəllim heyəti və tələbələri iştirak ediblər. Əhməd İsmayılov bildirib ki, özünəməxsus inkişaf yolu keçmiş Azərbaycan mediası ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı ictimaiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünyaya çatdırılması istiqamətində səmərəli fəaliyyət göstərib. O, media sahəsində islahatların hüquqi əsasları, medianın fəaliyyəti, media etikası, peşəkarlıq standartları ilə bağlı tələbə-jurnalistləri məlumatlandırıb. Xüsusilə medianın cəmiyyətdəki rolu, media subyektləri arasındakı münasibətlərin hüquqi baxımdan tənzimlənməsi və funksiyaları ilə bağlı əsas məqamları diqqətə çatdırıb.

Sonra Əhməd İsmayılov "Media haqqında" qanunun əsas müddəalarını şərh edərək, jurnalistlər üçün əhəmiyyətini vurğulayıb. Ustad dərsində medianın problemləri, cəmiyyət və media arasında əlaqələr barədə tələbələrlə fikir mübadiləsi aparılıb. İnteraktiv formada keçirilən ustad dərsində tələbələri maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

# Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç BDU-nun tələbələri ilə görüşüb

***2008-2012-ci illərdə Türkiyənin Azərbaycandakı səfiri, Azərbaycanın "Dostluq" ordeninə layiq görülmüş Hulusi Kılıç aprelin 20-də Jurnalistika fakültəsinin qonağı olub.***

Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirin moderatoru, fakültənin dekan müavini Samir Mirzəyev Türkiyə-Azərbaycan əlaqələrinin tarixi köklərə dayandığını vurğulayıb və bu əlaqələrin inkişafında sabiq səfir Hulusi Kılıçın səmərəli fəaliyyətini diqqətə çatdırıb.

Sonra Hulusi Kılıçın həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.



Hulusi Kılıç çıxışında Azərbaycan və Türkiyə arasında diplomatik əlaqələrin tarixindən və 44 günlük Vətən müharibəsində bütün sahələrdə nümayiş olunan birlikdən söz açıb. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun qazandığı parlaq qələbəni bütün türk dünyasının tarixi nailiyyəti kimi dəyərləndirən Hulusi Kılıç Azərbaycan-Türkiyə qardaşlığının regiona uzunmüddətli sülh və rifah gətirəcəyini bildirib. "44 gün Vətən müharibəsi, Hulusi Kılıç informasiya cəbhəsində" adlı kitabı barədə tələbələrə məlumat verən sabiq səfir Azərbaycanın qazandığı tarixi qələbənin regionda yaratdığı yeni geosiyasi vəziyyət barədə danışıb. Şuşa Bəyannaməsinin çox önəmli tarixi əhəmiyyətə malik olduğunu xatırladan Hulusi Kılıç deyib ki, hər bir vətəndaşımızın Türkiyə - Azərbaycan münasibətlərinin yüksək səviyyədə saxlanılmasında fəal iştirakı vacibdir.

Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri Hüseyn Altınalan, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, professorlar Sabir Məmmədli, Nəsiman Yaqublu çıxış edərək 44 günlük Vətən müharibəsində Türkiyə Cümhuriyyətinin hər zaman Azərbaycanın yanında olduğunu, informasiya cəbhəsində də qazanılan uğurları vurğulayıblar.

Sonda diplomat müəllifi olduğu "44 gün Vətən müharibəsi, Hulusi Kılıç informasiya cəbhəsində" kitabını tədbir iştirakçılarına hədiyyə edib.

## MƏZUNLA GÖRÜŞ

# Könül Bünyadzadə: "Universitetdə ucalıq və sadəliyin vəhdətinin şahidi oldum"

**Bakı Dövlət Universiteti əsrdən artıq sürən şərəfli tarixi ilə Azərbaycan xalqının intellektual bazasının möhkəmlənməsində, vətənpərvər ziyalı ordusunun yetişməsində, güclü gənc nəslin formalaşmasında əvəzsiz rol oynayır. Universitetimizin məzunları ölkə həyatının bütün sahələrində saysız-hesabsız uğurlara imza atır, Vətənimizin inkişafına öz töhfələrini verirlər. "MƏZUNLA GÖRÜŞ" rubrikasında oxucularımızı universitetimizin tanınmış məzunları ilə görüşdürməyi qərara aldıq.**

***Qonağımız şərqşünas alim, fəlsəfə elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Könül Bünyadzadədir. Könül Bünyadzadə 1992 Şərqşünaslıq fakültəsinin ərəb mütərcimliyi bölməsinə daxil olub və 1997-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirib.***

***Könül Bünyadzadə şəhid-şair Ülvi Bünyadzadənin bacısıdır.***

***-Könül xanım, tələbəlik illəri hamının həyatında ən yaddaqalan illər olur deyirlər. Əvvəlcə Bakı Dövlət Universiteti ilə tanışlığınız barədə danışaq.***

-Mən orta məktəbdə həmişə həkim-cərrah olmaq istəmişəm və ona uyğun fənləri daha güclü oxumuşam, olimpiadalarda iştirak etmişəm. Bakı Dövlət Universiteti, şərqşünaslıq fakültəsi isə qardaşım Ülvinin arzusu olub. 1990-cı ildən sonra arzularım kökündən dəyişdi. Düzdür, mən Xarici Dillər İnstitutuna hazırlaşırdım, ancaq nədənsə Bakı Dövlət Universitetinin həsrətini çəkirdim. O vaxt yeni qəbul olunmuş tələbələrin Universitetin qarşısında çəkdirdikləri bir şəkli qəzetdən kəsib saxlayırdım, arada baxıb xəyallara dalırdım. Tale və test imtahanında yığdığım bal məni Ülvinin ilk arzusuna gətirdi - Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə. Bir dəfə yanımda demişdilər ki, Universitetin quru divarları da hikmət öyrədir. Bunu real olaraq yaşadım, bu müqəddəs ocaqdan mən də nəsibimi aldım: müdrik müəllimlərdən dərs aldım, "Ustad" anlayışını dərk elədim, ucalıq və sadəliyin vəhdətinin şahidi oldum, illərə meydan oxuyan dostlar qazandım, mübarizə aparmağı, sınmamağı, səbir, təmkini öyrəndim, elmdə "iynəylə gor qazmaq" təcrübəsini mənimsədim. Düzdür, Universitetdə Ülvinin arzuları naminə oxumuşam və 5 il bunu hər gün, hər saat xatırlamışam, ancaq oranı bitirən Könül oldu.



***-Adətən filosofların ilahi qüvvəyə şübhə ilə yanaşdığını eşitmişəm. Siz isə, deyəsən, inanclı insansınız...***

-Böyük filosoflar ilahi qüvvəni inkar etməyiblər. İnancların verdiyi qənaətlə elmi verdiyi qənaət bir-birinə mane olmur. Onlar bir-birini tamamlaya da bilər, tamamlamaya da. Amma qətiyyən bir-birinə mane ola bilməz. Çünki onlar eyni həqiqəti axtarırlar. Əsl xaos inancı elmə, elmi inanca çevirmək istəyəndə yaranır. İnanc və elm ruh və bədən kimidir, mütləq vəhdətdə olmalıdır. Məşhur fizik Nikola Tesla gündəliyində yazır ki, ona elmi, ideyaları verən məhz Allah imiş. O, kəşflərinin mənbəyini tapandan sonra həmişə Tanrıya şükür edib.

***-Nəsimi, Nəimi insanın Tanrının nişanəsi olduğunu deyirdilər. Bu fikirlə razısınız?***

-Əslində nəinki insan, bütün dünya Allahın təzahürüdür. İnsan digər yaradılmışlardan fərqli olaraq bunu bilir. İnsan yalnız Allahın bildiyi həqiqətləri bilə bilir. Nəsiminin fikrincə, insan ilahi keyfiyyətlərini kəşf etmək üçün kamil olmalıdır. Özündəki ilahi keyfiyyətləri kəşf edən insan mənəvi baxımdan dərinləşir və o, həqiqətən, Allahın təzahürüdür.

***-Müsahibələrinizin birində musiqini çox sevdiyinizi demisiniz. Və həyatın harmoniyasını musiqi ilə müqayisə etmisiniz. Daha çox hansı janrları dinləyirsiniz?***

-Deyilənə görə, insan bədənində hər hüceyrənin öz ritmi var. Xəstəlik isə həmin hüceyrələrinin ritminin pozulmasıdır. Tədricən bu, zənvirvari formada davam edir və insanı özündən çıxarır. Konkret sualınıza gəldikdə isə deyim ki, insan ruhuna uyğun musiqini dinləyir. Mən də adətən işləyəndə musiqi dinləyirəm. Muğam dinləməyi sevirəm. Flora Kərimovanın ifalarını bəyənirəm.

***-Deyəsən, sosial şəbəkələrdə o qədər də fəal deyilsiniz...***

-Bəli, elədir. Təxminən bir il sosial şəbəkələrdə aktiv deyiləm. Bunun ən əsas səbəbi isə bir kitab üzərində işləməyimdir. Həmçinin pandemiya da bizi daha da həssaslaşdırdı. Ona görə özümü bərpa etmək məqsədilə sosial şəbəkələrdən uzaqlaşdım.

***-Yazdığınız kitab nə ilə bağlıdır?***

-Orada özümün fəlfəfi sistemim toplanır. Pandemiya başlayanda bu barədə yazmağı qərara aldım. Bu istiqamətdə araşdırmalarım əvvəllər də olub. Kitab hazırda redaktə mərhələsindədir. Tarixdə heç vaxt bir qadının öz fəlsəfi sistemi barədə kitab çıxmayıb. Bu, ilk ola bilər.

***-Ümumiyyətlə, soaial platformalara münasibətiniz necədir?***

-Fikrimcə, yeni media insanın öz həyəcanlarını paylaşmaq üçün deyil. Mən şəxsi hesablarımda ancaq müsbət ovqatlı məqamları ictimailəşdirməyə çalışıram. Elə insanlar da var ki, az qala, bütün şəxsi həyatlarını ictimailəşdirirlər.

***-Sizcə, bu, nə ilə bağlıdır?***

-Yanaşmalar fərqlidir. Bəlkə də, bu, natamamlıq kompleksi ilə əlaqəlidir. Ümumiyyətlə, insan natamamdır. Biz daim özümüzü təkmilləşdirməli, dərinləşməliyik. Nəlbəki, qazan və dənizdə suyun çalxalanmasının yaratdığı effekt fərqlidir. Kiçik bir titrəyiş zamanı nəlbəkidəki su ətrafa dağılır. Dənizdə isə bu, mümkün deyil. Deməli, mümkün qədər dərin olmaq lazımdır. Haqqında danışdığımız insanlar mütləq nədənsə təsirlənir, belə demək mümkünsə, çalxalanırlar. Həmin insanlar sakitləşmək üçün axtardıqlarını tapa bilmurlər. Ona görə də gördükləri hər gözəlliyi paylaşmaq istəyirlər. İnsan nə qədər dərin olarsa, onu özündən çıxarmaq bir o qədər çətinləşir. Və bu, özünü bir məqamlarda, o cümlədən sosial şəbəkələrdəki statuslarda göstərir.

***-Gənclərə tövsiyəniz nələrdir?***

-Gəncliyi çox sevirəm. Onların əksəriyyəti çox istedadlıdır. Odur ki, gəncliyi yüksək qiymətləndirirəm. Fikrimcə, gənclərimiz daha əzmkar olmalıdırlar, ilk maneədəcə sınmamalıdırlar. Gücün mənbəyi bilikdir. Yəni çox oxumaq lazımdır. İnsan nə qədər bilikli olsa, o qədər dünyagörüşlü olar. Beləliklə, bayaq dediyimiz kimi, nəlbəki tədricən dənizə çevrilər, dərinləşər. İkinci tövsiyəm isə milli-mənəvi dəyərlərə hörmətlə yanaşmaqdır. Çünki milli-mənəvi dəyərlər kökdür. Milli-mənəvi dəyərlərə hörmətlə yanaşmayanlar təxminən dibçək gülünü xatırladır. Onlar köklü Çinardan fərqli olaraq, hər yerdə müvəqqətidirlər.



***Kənan Novruzov***
*Jurnalistika fakültəsi, magistratura II kurs*

# Fakültələrdə Aprel döyüşlərinin ildönümü qeyd olunub



***Aprelin 5-də Filologiya fakültəsində Tələbə Gənclər Təşkilatı və "Qiraət" klubunun birgə təşəbbüsü ilə Aprel döyüşlərinin ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Aprel döyüşlərindən bəhs edən videoçarx nümayiş olunub.

Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov XX əsrdə erməni millətçilərinin azərbaycanlılara qarşı apardıqları təcavüzkarlıq siyasətindən, Ümummilli lider Heydər Əliyevin və Ali Baş Komandan İlham Əliyevin işğal edilmiş ərazilərimizin azad olunması uğrunda həyata keçirdikləri mühüm addımlardan, Vətən müharibəsində əldə etdiyimiz tarixi qələbəyə gedən yolda Aprel döyüşlərinin xüsusi əhəmiyyət daşımasından bəhs edib.

Vətən müharibəsi qaziləri İbrahim Həsənov və Elməddin Novruzov döyüş xatirələrini bölüşüblər. Azərbaycan dilçiliyi kafedrasının dosenti Fikrət Əlizadə, Tələbə Gənclər Təşkilatının üzvləri Aydan Rüstəmzadə və İbrahim Hüseynzadə çıxışlarında Aprel döyüşləri və Vətən müharibəsində ordumuzun həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatlarından, ağır və gərgin keçən döyüşlərdə igid oğullarımızın göstərdikləri qəhrəmanlıqlardan söz açıblar.

Tədbirdə "Qiraət" klubunun hazırladığı bədii kompozisiya nümayiş olunub.

***

***Aprelin 8-də Tarix fakültəsində "Aprel döyüşləri-Zəfərə aparan yol" adlı tədbir keçirilib.***

Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov Aprel döyüşlərinin Vətən müharibəsindəki qələbənin təməli olduğunu və xalqın vətənpərvərlik ruhunu alovlandırdığını qeyd edib.

Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, dosent Kərəm Məmmədov ermənilərin 200 ildən bəri davam edən təcavüzkarlıq siyasəti, Qarabağ münaqişəsinin başlanma tarixi, Müzəffər Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən hərbi və diplomatik siyasət, qazanılan uğurlar barədə məlumat verib.

Daha sonra Tarix fakültəsinin II kurs tələbələri Akif Qasımzadə və Zöhrab Cavadzadə Aprel döyüşlərinin qəhrəmanları barədə danışıblar.

Tarix fakültəsinin II kurs tələbələri Turanə Abbasova, Nəbi Hüseynov, Ehtiram Qurbanov vətənpərvərlik ruhunda yazdıqları şeirlərlə çıxış ediblər.

***



***Aprelin 13-də* Biologiya fakültəsində Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə "Böyük Zəfərin başlanğıcı - Aprel döyüşləri" adlı tədbir keçirilib.**

Biologiya fakültəsinin dekanı Afət Məmmədova çıxış edərək, Aprel döyüşlərində Azərbaycan Ordusunun göstərdiyi şücaət, qazandığı qələbənin xalqımızda böyük ruh yüksəkliyi yaratdığını, ordumuzun böyük gücə malik olduğunu sübuta yetirdiyini, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirdiyini qeyd edib.

Tədbirdə Aprel döyüşlərinin ən gənc şəhidi Emin Bağırovun valdeynləri, ehtiyatda olan kapitan Şəmsəddin Qurbanov, Vətən müharibəsi iştirakçısı Fətulla Nəsirov çıxış ediblər. Çıxışçılar vurğulayıblar ki, Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Aprel döyüşlərində qələbə qazanıb, düşmənə layiqli cavab verib.

Tədbirdə Aprel döyüşlərinə həsr edilmiş videoçarx nümayiş olunub.

Sonra Vətən müharibəsi iştirakçısı Vüsal Yaqubov çıxış edərək şəhid valideynlərinin və şəhid qardaşlarının yaşadıqlarını və tökülən qanlarının əbəs olmadığını, ərazi bütövlüyümüzün bərpa olduğunu bildirib.

Sonda Biologiya fakültəsi TGT sədri Vüsal Məmmədrəhimov qonaqlara kitab dəstlərini təqdim edib.

## Coğrafiya fakültəsində şəhid Nurlan Əbilovun xatirəsi anılıb



***Aprelin 19-da Coğrafiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə fakültənin məzunu, Vətən müharibəsi şəhidi Nurlan Əbilovun xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.***

Tədbirdə Dövlət himni səsləndirilib və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Coğrafiya fakültəsinin dekanı, dosent Şəkər Məmmədova Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusunun 44 günlük Vətən müharibəsində şanlı qələbəsinin tariximizə qızıl hərflərlə yazıldığını, 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızın mənfur düşməndən azad edildiyini qeyd edib. O, şəhid Nurlan Əbilovun həyatı, tələbəlik illəri barədə tələbələrə məlumat verib, onun Vətən müharibəsi başlayan zaman döyüşlərə könüllü qatıldığını bildirib.

Nurlan Əbilovun qrup yoldaşı Yalçın Kamilov tələbəlik illəri barədə xatirələrini bölüşüb. O, Nurlan Əbilovun qəhrəmanlığının yüksək qiymətləndirildiyini, onun "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif olunduğunu diqqətə çatdırıb.

Coğrafiya fakültəsinin məzunu, Vətən müharibəsi qazisi Cavid Aşirov şəhid ailələrinin üzvləri və qazilərin dövlət rəhbərliyinin diqqət və qayğısını hər zaman hiss etdiklərini bildirib, tədbirin təşkilatçılarına təşəkkür edib.

Şəhid Nurlan Əbilovun həmyerlisi, Coğrafiya fakültəsinin III kurs tələbəsi Samir Məmmədov Şərəfə kəndinin şəhidləri, onların döyüş yolu barədə məlumat verib.

Tədbirin sonunda şəhid Nurlan Əbilova həsr olunmuş videoçarx təqdim edilib.

# 44 günlük Müqəddəs Zəfər yoluna aparan 4 gün

***Azərbaycan xalqının çağdaş tarixində Aprel döyüşlərinin böyük əhəmiyyəti vardır. Məhz bu ağır döyüşlərdə işğalçı Ermənistan üzərində qazanılan ciddi hərbi uğur dörd il sonra 44 günlük şanlı Vətən müharibəsində Azərbaycanın möhtəşəm tarixi zəfərinin əsasını qoydu. Tam əminliklə demək olar ki, Aprel döyüşləri böyük qələbənin başlanğıcı oldu.***

Məlumdur ki, 2016-cı il aprelin 2-də Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində erməni hərbi birləşmələrinin atəşkəs rejimini pozmasına cavab olaraq, Azərbaycanın Hərbi Qüvvələri geniş əks-hücuma keçdi. Tarixə "dördgünlük müharibə" kimi düşən döyüşlər nəticəsində işğal altında olan təxminən 800 hektara yaxın ərazi azad edilərək, Azərbaycanın nəzarətinə keçdi. Döyüşlər nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Aprel döyüşlərinin əhəmiyyətindən danışarkən deyib: "Biz sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Aprel döyüşləri zamanı biz sadəcə olaraq imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu, bir daha onu göstərir ki, aprel döyüşləri Ermənistanın təxribatı idi. İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi, biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdusa, biz o hədəflərə də çatdıq".

2016-cı ilin aprelində baş verən döyüşlərdə qazanılan uğur Azərbaycan xalqının Böyük Qələbəyə olan inam hissini gücləndirdi. Xalqın öz dövlətinə və liderinə olan inamı daha da artdı. Düşmən isə, əksinə, tezliklə biabırçı məğlubiyyətə məruz qalacağını dərk edərək kəskin təşvişə düşdü. Ən başlıcası, Aprel döyüşləri cinayətkar erməni rəhbərlərinin "keçilməz erməni səngərləri" haqqında mifi alt-üst etdi.

Aprel döyüşlərinin nəticələri Ermənistan cəmiyyətinə təsirsiz ötüşmədi və əhali arasında onsuz da etimadını itirməkdə olan Serj Sarkisyan hakimiyyətinin dayaqları daha da zəiflədi. "Dördgünlük müharibə" Ermənistan əhalisinin erməni ordusunun yenilməzliyinə olan inamını alt-üst etdi.

Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi. Dövlət başçımızın Azərbaycan Ordusunun Aprel qələbəsinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşündə də qeyd etdiyi kimi, Ermənistan öz müstəqil həyatını Azərbaycan torpaqlarının işğalına qurban verib.

Lakin bu hal uzun sürmədi. Xalqımızın şanlı Vətən müharibəsində qazandığı tarixi zəfər nəticəsində Ermənistan işğalın ağır bədəlini ödəməli oldu. Düşmən faktiki olaraq qalib Azərbaycan Ordusu qarşısında kapitulyasiyaya məcbur edildi! Sonda bir daha vurğulamaq istərdik ki, aprel döyüşləri tarixi Şuşa zəfərinə yol açdı. Xalqımız Vətən müharibəsində parlaq tarixi qələbə qazanaraq öz ərazi bütövlüyünü təmin etdi. Azərbaycan xalqına, onun bütün igid əsgər və zabitlərinə eşq olsun!



**Firavan Əlizadə**
*Hüquq fakültəsi, magistratura I kurs, TGT-nın sədri*

# BDU-nun əməkdaşları şəhid general-mayor Polad Həşimovun ailəsini ziyarət ediblər



***Aprelin 4-də Bakı Dövlət Universitetinin bir qrup əməkdaşı Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun Sumqayıt şəhərində yaşayan ailəsini ziyarət ediblər.***

Ziyarətdə BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Geologiya fakültəsinin dekan müavini İlqar Quliyev, BDU könüllülərinin rəhbəri Nərmin Heydərova, İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin mütəxəssisi Gülabə Məmmədzadə və tələbələr iştirak ediblər.

Ziyarətdə çıxış edənlər general-mayor Polad Həşimovun Vətən uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını, onun qəhrəmanlığının tələbə gənclərə nümunə olduğunu bildiriblər. Şəhid generalın anası Səmayə Həşimova oğlu ilə bağlı xatirələrini bölüşüb, Polad Həşimovun əziz xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını, gələcək nəsillər üçün örnək olacağını vurğulayıb.

Sonra şəhid generalın yaşadığı ünvanda xatirəsinə yaradılmış guşəsi ziyarət olunub, büstü önünə gül dəstələri düzülüb, ruhuna dualar oxunub.

BDU əməkdaşları daha sonra Sumqayıtın Şəhidlər Xiyabanında polkovnik-leytenant Raquf Orucovun məzarını ziyarət edib, məzarı önünə gül dəstələri düzüblər.

# BDU-nun Qazax filialında Milli Qəhrəman Alı Mustafayevin yubileyi keçirilib

***Aprelin 15-də Qazax Rayon İcra Hakimiyyəti, Bakı Dövlət Universitetinin Qazax filialı və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə Əməkdar jurnalist, Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayevin 70 illik yubileyi münasibətilə tədbir keçirilib.***

Tədbirdə filialın professor-müəllim heyəti, tələbələr, Milli Qəhrəmanın ailə üzvləri, qazilər və şəhid ailələri iştirak ediblər.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq Milli Qəhrəman, şəhid jurnalist Alı Mustafayevin şərəfli həyat yolu və mətbuatdakı fəaliyyəti barədə danışıb.

Sonra Prezidentin sərəncamı ilə Mədəniyyət Nazirliyi tərəfindən "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən Alı Mustafayevə həsr olunmuş "Alı zirvəsi" adlı sənədli film nümayiş edilib.

Azərbaycan Yazıçılar Birliyinin Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, filologiya üzrə elmlər doktoru Valeh Nəsibli, filialın baş müəllimi Mustafa Mustafayev, filmin rejissoru, Milli Kino Mərkəzinin rəhbəri Kəmalə Musazadə çıxış edərək Milli Qəhrəmanın nəsillərə örnək olan ömür yolundan və poetik yaradıcılığından söhbət açıblar.

Alı Mustafayevin bacısı Nazlı Yaqubova yubiley tədbirini keçirdikləri üçün tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Tədbirdə filialın tələbələri Alı Mustafayevin şeirlərini səsləndiriblər.

# BDU-nun şəhid məzunlarının məzarı ziyarət olunub



***Aprelin 21-də Mexanika-riyaziyyat fakültəsinin Tələbə Gənclər Təşkilatının üzvləri həmin fakültənin Riyaziyyat ixtisasında təhsil almış şəhid Manaf Bəhmənlinin məzarını ziyarət ediblər. Tələbələr şəhid məzunun məzarı önünə gül dəstələri düzüb, ruhuna dualar ediblər.***

Ziyarətdə şəhid Manaf Bəhmənlinin xatirəsi ehtiramla yad edilib, Universitetdə oxuduğu illərdə hər zaman ictimai fəallığı, yardımsevərliyi ilə seçildiyi, 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşərək sentyabrın 27-də şəhidlik zirvəsinə yüksəldiyi qeyd olunub. Bildirilib ki, diqqətcil, gülərüz, vətənpərvər bir igid kimi tanınan Manaf Bəhmənlinin əziz xatirəsi yaddaşlardan silinməyəcək.

Allah şəhidlərimizə rəhmət eləsin!

***

***Bakı Dövlət Universitetinin şəhid tələbə və məzunlarının xatirəsi daim əziz tutulur, şəhid ailələri və qazilərlə vaxtaşırı görüşlər keçirilir.***

Aprelin 8-də BDU-nun bir qrup əməkdaşı Vətən Müharibəsi şəhidi, Hüquq fakültəsinin məzunu Ceyhun Şalıyevin doğum günündə ailəsi ilə görüşüb, məzarını ziyarət edib.

BDU-nun Hüquq fakültəsinin dekanı vəzifəsini icra edən Rahim Məmmədov, sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Aytəkin İbrahimova, fakültə Tələbə Gənclər Təşkilatının sədri Firavan Əlizadə və Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Cavid Nurulu şəhidin məzarını ziyarət edib.

Görüş zamanı ziyarətçilər Ceyhun Şalıyevin Vətən torpağı uğrunda qəhrəmancasına şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını bildiriblər. Təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Ceyhun Şalıyevin həm müəllimlərinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün örnək olacağı qeyd olunub.

Qeyd edək ki, Ceyhun Şalıyev 2011-2015-ci illərdə BDU-nun Hüquq fakültəsində təhsil alıb, 2016-cı ildə Aprel döyüşlərində iştirak edib. 2020-ci ildə Ceyhun Şalıyev könüllü olaraq ordu sıralarına qoşulub və oktyabrın 1-də şəhidlik zirvəsinə ucalıb.

Ölümündən sonra Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Füzulinin azad olunması uğrunda" medalları ilə təltif edilib.

# BDU-da qazilərlə görüş



***Aprelin 4-də Bakı Dövlət Universitetinin SABAH mərkəzinin təşkilatçılığı və Mirzə Ələkbər Sabir Fondunun dəstəyi ilə Vətən müharibəsi və Aprel döyüşlərinin qaziləri ilə görüş keçirilib.***

Tədbirdə Dövlət himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Mirzə Ələkbər Sabir Fondunun prezidenti Sevda Tahirli Aprel döyüşlərini qələbənin ilk qığılcımı kimi dəyərləndirib, onun tarixi əhəmiyyət daşıdığını vurğulayıb. Tədbirdə Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev, Qarabağ Əlilləri və Veteranları Cəmiyyətinin sədri Növrəstə Yusifova, Vətən müharibəsi iştirakçıları və qaziləri - komando qrupunun komandiri Ramiz Məmmədzadə, İbrahim Həsənov, polkovnik-leytenant İntiqam Məhərrəmov, polkovnik-leytenant Nihad Abdullayev, polkovnik-leytenant Akif Rəhimov, kəşfiyyatçı Vidadi Əliyev, XTQ-nin ehtiyatda olan hərbi qulluqçuları Natiq Mehdiyev və Elməddin Novruzov döyüş yolları haqqında çıxış edib, müharibə xatirələrini tələbələrlə bölüşüblər. Tədbirdə yazıçı Varis Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin həyatı və Xocalı qətliamından bəhs edən "Qırmızı ləçəklər", araşdırmaçı-jurnalist Aida Eyvazlı isə Aprel döyüşlərinin qəhrəmanları haqqında ərsəyə gətirdiyi ikicildlik "Qalibiyyət: şahidlər və şəhidlər" kitablarını ən yaxşı nəticə əldə edən tələbələrə hədiyyə ediblər. SABAH qrupunun Tarix müəllimliyi ixtisasının IV kurs tələbəsi Fizzə Məmmədova şəhidlərimizə həsr etdiyi "Şəhidim, sənə söz verirəm..." şeirini səsləndirib. Sonda SABAH qrupunun Hüquqşünaslıq ixtisasının II kurs tələbəsi Zübeyr Bağırzadə "Cənab leytenant" mahnısını ifa edib.

# Kimya fakültəsinin tələbələri II Fəxri Xiyabanı ziyarət ediblər



***Aprelin 5-də Kimya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə fakültənin bir qrup tələbəsi Aprel döyüşlərinin ildönümü münasibəti ilə II Fəxri Xiyabanı ziyarət edib.*** Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsini yad edib, ruhlarına dualar oxuyub, məzarları üzərinə gül dəstələri düzüblər.

# "Üç qardaşın sərvəti" adlı elmi seminar

***Aprelin 14-də Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə Azərbaycan, Türkiyə və Pakistan Milli kitabxanalarının fəaliyyətinə həsr olunmuş "Üç qardaşın sərvəti" adlı elmi seminar keçirilib.***



Elmi seminarı giriş sözü ilə açan BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov Azərbaycan, Türkiyə və Pakistan dövlətlərinin tarixi ənənələrə söykənən dostluq və qardaşlıq münasibətləri barədə ətraflı məlumat verib. Xüsusilə tarixi zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində Türkiyə və Pakistan dövlətlərinin ölkəmizə göstərdikləri mənəvi-siyasi dəstəyin böyük əhəmiyyət daşıdığını qeyd edib. Mais Süleymanov elmi seminarda müzakirə edilən mövzuların aktuallığını vurğulayaraq bildirib ki, üç dost və qardaş dövlətin kitab sərvətindən bəhs edən məruzələri bu dostluğa daha bir töhfə hesab etmək olar.

Elmi seminarda Biblioqrafiyaşünaslıq kafedrasının müdiri Nadir İsmayılov Azərbaycan Milli Kitabxanası, Kitabxanaşünaslıq kafedrasının dosenti Pərviz Kazimi Türkiyə Milli Kitabxanası, Kitabxanaşünaslıq kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Eldəniz Məmmədov Pakistan Milli Kitabxanası haqqında məruzələr ediblər.

Məruzələrdə üç dövlətin Milli kitabxanalarının yaranma tarixi, formalaşma dövrü və müasir vəziyyəti müqayisəli təhlil edilib. Milli kitabxanaların kitab fondu, oxuculara xidmət üsulları, həyata keçirilən rəqəmsallaşdırma prosesləri, kitabxanalararası əməkdaşlıq barədə dolğun informasiyalar diqqətə çatdırılıb.

Dinləyicilərin xüsusi marağına səbəb olan elmi seminar diskussiyalarla davam etdirilib, məruzəçilərə çoxsaylı suallar ünvanlanıb.

# Ekologiya və torpaqşünaslıq fakültəsində növbəti elmi seminar keçirilib

***Aprelin 15-də Ekologiya və torpaqşünaslıq fakültəsində növbəti elmi seminar keçirilib. Seminarda Bioekologiya kafedrasının əməkdaşı Günel Sarıyeva "Qanıx-Əyriçay vadisinin bitki örtüyünün xüsusiyyətləri və onun müasir vəziyyəti" mövzusunda çıxış edib.***



Günel Sarıyeva qeyd edib ki, Qanıx-Əyriçay vadisi bitki örtüyünün indiyədək ətraflı şəkildə öyrənilmədiyi ərazilərdəndir. Vadinin bitki örtüyündə tədricən təbii və antropogen mənşəli suksessiyalar yaranıb, biomüxtəlifliyin sayı sürətlə azalıb. Biomüxtəlifliyin ekosistemin funksionallığı və dayanıqlığı üçün vacib əhəmiyyəti nəzərə alınaraq Qanıx-Əyriçay vadisi tədqiqata cəlb edilib.

2012-2018-ci illərdə aparılmış tədqiqatlar nəticəsində vadinin florasında 959 takson qeydə alınıb, bitki örtüyü isə 5 tip (yarım səhra, çalaçəmən, su-bataqlıq, meşə, kolluq tipləri) daxilində təsnifatlaşdırılıb. Müəllif tərəfindən tədqiqat ərazisində qeydə alınmış bitkilərdən 20 növ Azərbaycan Respublikasının "Qırmızı Kitab"ının II nəşrinə (2013) daxil edilib, onlardan 5 növün vadidə yeni yayılma sahələrinin coğrafi koordinatları müəyyənləşdirilib. Bütövlükdə tədqiqat ərazisində 3 yarımnöv və 35 növə aid borulu bitkilərin yeni yayılma ərazisi qeydə alınıb. Vadinin florasında qeydə alınmış 6 növ Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyinin (IUCN) Qırmızı Siyahısına salınıb.

CİS texnologiyaları və Reymers düsturundan istifadə edilməklə ərazidə ekoloji-sosial-iqtisadi səmərənin qiymətləndirilməsi məqsədilə yerüstü örtüyün sinifləri xəritəsi tərtib edilib, transformasiya olunub və təbii ekosistemlərin nisbəti hesablanıb. Bununla yanaşı, vadidə 2017-ci il üçün meşələrin sahəsi və Bitkiliyin Normallaşdırılmış Nisbi İndeksi (NDVI) göstəriciləri də hesablanıb. Alınmış nəticələr Qanıx-Əyriçay vadisinin bitki örtüyünə neqativ təsir edən əsas ekoloji amillərin antropogen təsirlər və invaziv bitki növləri olduğunu müəyyənləşdirib.

Günel Sarıyeva bildirib ki, tədqiqat işinin nəticələrindən gələcəkdə ayrı-ayrı növlərin ekologiyasının öyrənilməsində, "Qırmızı Kitab"ın III nəşrinin və Azərbaycan florasının hazırlanmasında etibarlı mənbə kimi istifadə oluna bilər.

Sonda seminar iştirakçılarının sualları cavablandırılıb.

# "Əmək bazarının müasir vəziyyəti və yeni hədəflər" mövzusunda təlim

***Aprelin 18-də Bakı Dövlət Universitetində "Əmək bazarının müasir vəziyyəti və yeni hədəflər" mövzusunda təlim keçirilib.***

BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun müdiri Vasif Həsənov Prezident İlham Əliyev tərəfindən məşğulluq sahəsində həyata keçirilən islahatların əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycanda əmək bazarının inkişafına yönələn islahatlar ölkəmizin bu sahədə də reytinqinin artmasına şərait yaradır. Natiq BDU-da mütəmadi olaraq əmək bazarında yeni çağırışlara həsr olunmuş təlimlərin keçirildiyini qeyd edib.

Sonra mövzu ətrafında Dövlət Məşğulluq Agentliyinin Əmək bazarının təhlili və inkişafı departamentinin müdiri Elman Sadıqov interaktiv təqdimatla çıxış edib.

Təlimçi çıxışında Azərbaycanın əmək bazarının xüsusiyyətlərini təhlil edib, məşğulluq sahəsində ortaya çıxan çağırışların, o cümlədən əmək qabiliyyətli əhalinin əmək bazarının tələblərinə uyğunlaşdırılması çağırışının aktuallıq kəsb etdiyini bildirib.

Təlim mövzu ilə bağlı sualların cavablandırılması ilə yekunlaşıb.

# Ümumdünya Kvant Gününə həsr olunmuş elmi seminar

***Aprelin 15-də Fizika fakültəsi, Fizika Problemləri Elmi-Tədqiqat İnstitutu, AMEA Fizika İnstitutunun birgə təşkilatçılığı ilə 14 aprel - Ümumdünya Kvant Gününə həsr olunmuş elmi seminar keçirilib.***

Nəzəri fizika kafedrasının müdiri Məmməd Rəcəbov Ümumdünya Kvant Günü ilə bağlı seminar iştirakçılarına ətraflı məlumat verib. Qeyd olunub ki, bu gün kvant fizikası sahəsində aktiv elmi tədqiqatlar aparan 67 ölkənin tədqiqatçıları tərəfindən könüllü olaraq təsis edilib.

Daha sonra AMEA Fizika İnstitutunun Kvant informatikası laboratoriyasının müdiri, fizika elmləri doktoru Elçin Cəfərov "Yarımkonfaynment effekti nümayiş etdirən kvant harmonik ossilyatoru modelinin dəqiq həlləri" mövzusunda məruzə ilə çıxış edib. O, harmonik ossilyatorun bu halda da enerjisinin spektrinin diskret olduğunu isbatlayıb və modelin dəqiq həllərini ala bilib.

Seminar mövzusu geniş müzakirə edilib, verilən suallar məruzəçi tərəfindən cavablandırılıb.

# "You will speak" Dil Mərkəzinin açılışı olub

***Aprelin 28-də Bakı Dövlət Universitetində "You will speak" Dil Mərkəzinin açılışı olub. Açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Universitetdə son illər bir sıra mühüm islahatlar həyata keçirilir.***

Təhsil-elm-tədqiqat-innovasiya mərkəzlərindən birinə çevrilməkdə olan BDU-nun Elmi Kitabxanası, insan resurslarının idarə edilməsi və sənəd dövriyyəsi elektronlaşdırılır, texniki təchizatı gücləndirilir, yeni mərkəz və laboratoriyalar yaradılır. Rektor BDU-nun müəllim və tələbə heyətinin fərdi inkişafının önəmli məsələlərdən olduğunu qeyd edib, yeni açılan Dil Mərkəzinin bu amala xidmət etdiyini bildirib: "Rəqəmsallaşan dünyada müxtəlif xarici dillərin öyrənilməsi günün tələbidir. İngilis dilinin öyrənilməsi həm tədris, həm də elmi tədqiqat prosesində zərurətə çevrilib. Bu baxımdan tələbə və əməkdaşların xarici dil səviyyəsinin yüksək olması tədrisin və elmi tədqiqatların keyfiyyətinə, beynəlxalq əlaqələrin gücləndirilməsinə öz töhfəsini verəcək. Dil Mərkəzi dövlət-özəl tərəfdaşlığı çərçivəsində yaradılıb".

# "Narkomaniyaya YOX deyək!" adlı tədbir

***Aprelin 18-də Biologiya, Kimya, Sosial elmlər və psixologiya fakültələrinin birgə təşkilatçılığı ilə "Narkomaniyaya YOX deyək!" mövzusunda tədbir keçirilib.***

Biologiya fakültəsinin dekanı Afət Məmmədova müasir dövrdə narkomaniyanın insanlıq əleyhinə böyük bəlaya çevrildiyini qeyd edib, yeniyetmə və gənclər arasında narkomaniya ilə mübarizənin və ictimai nəzarətin əhəmiyyətini vurğulayıb.

Kimya fakültəsinin dekan müavini Taleh Qəhramanov tədbirin Azərbaycan cəmiyyətinə çağırış olduğunu deyərək, gəncləri sağlam həyat tərzi keçirməyə, kitablardan, filmlərdən, maraqlı insanlarla ünsiyyətdən zövq almağa, zərərli vərdişlərdən uzaq olmağa çağırıb.

Ehtiyatda olan polis polkovniki Adıgözəl Adıgözəlov, Bakı şəhəri Narkoloji Mərkəzin narkoloq-həkimi Fəzail Sadıqov, Respublika Narkoloji Mərkəzinin psixoloqu Ramin Allahverdiyev, Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının sədri Əli Qədirli, Sosial elmlər və psixologiya fakültəsinin Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi Diyanə İbrahimova və həmin fakültənin IV kurs tələbəsi Ayşən Qəribova çıxışlarında gənclər arasında psixoaktiv maddələrdən sui-istifadə zamanı yaranan asılılıq problemləri, asılılığın başvermə səbəbləri, psixoaktiv maddələrin kimyəvi tərkibi və yaratdığı fəsadlar, bununla əlaqədar hüquq pozuntularının profilaktikası haqqında tədbir iştirakçılarına ətraflı məlumat veriblər.

# Təhsil Tələbə Krediti Fondunun İdarə Heyətinin sədri Araz Paşayev BDU-da tələbələrlə görüşüb



*Aprelin 18-də Təhsil Tələbə Krediti Fondunun (TTKF) İdarə Heyətinin sədri Araz Paşayev Bakı Dövlət Universitetində tələbələrlə görüşüb.*

Tədbiri giriş sözü ilə açan BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev ölkəmizdə aparılan təhsil islahatları, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, TTKF-nin yaradılması ali təhsilə və aztəminatlı təbəqədən olan gənclərə dövlət qayğısının bariz nümunəsidir. İndiyədək BDU-nun 194 tələbəsi Fondun yaratdığı imkanlardan yararlanıb.

Fondun İdarə Heyətinin sədri Araz Paşayev TTKF-nin fəaliyyət istiqaməti, hədəf və prioritetləri barədə danışıb, eləcə də 2021/2022-ci tədris ilinin payız semestri üzrə rəsmiləşdirilmiş təhsil kreditlərinə dair hesabat təqdim edib.

Araz Paşayev qeyd edib ki, Fondun yaradılmasında əsas məqsəd əhalinin aztəminatlı təbəqəsindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, onlar üçün bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir. Dünyanın ən qabaqcıl təcrübələrini özündə birləşdirən TTFK-nin Azərbaycanda mövcud olması tələbələr üçün yeni imkanlar yaradıb. Araz Paşayev qurumun fəaliyyəti haqqında görüş iştirakçılarını məlumatlandırıb. Qeyd edib ki, artıq 2021-2022 tədris ilinin payız semestri üçün təhsil tələbə kreditləri ilə bağlı müraciətlərin nəticələri məlum olub, yaz semestri üzrə müraciətlər isə daxil olmaqdadır. O, TTFK-nin iş prinsiplərini təbliğ etmək məqsədilə ali məktəb tələbələri ilə silsilə görüşlər keçirildiyini bildirib.

Görüşdə təhsil tələbə kreditinə dair elektron sistemin işləmə mexanizmi canlı nümayiş etdirilib, mövzu ilə bağlı tələbələrin sualları cavablandırılıb.

# BDU-nun komandası "Bakı Gənclər Debat Forumu: Qış mövsümü" layihəsində qalib olub

*Aprelin 14-də "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin dəstəyi, "New World" Proqramının tərəfdaşlığı ilə Milli Debat Proqramı çərçivəsində "Bakı Gənclər Debat Forumu: Qış, 2021"in final və bağlanış mərasimi keçirilib.*

Forum çərçivəsində "Dövlətlərin qlobal su böhranının həlli istiqamətində atdığı addımlar özünü doğruldur" mövzusunda qrup və seçmə oyunları keçirilib. Forumda Azərbaycan və rus bölmələri üzrə 16 ali təhsil müəssisəsinin debat klublarının natiqlərindən ibarət 36 komanda, ümumilikdə 45 hakim iştirak edib, 78 debat oyunu keçirilib, 300-dən artıq gənc maariflənib.

"Bakı Gənclər Debat Forumu"nun qış mövsümünün final mərhələsində Azərbaycan bölməsi üzrə Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AMİU) "Hər ehtimala qarşı" və Azərbaycan Tibb Universitetinin (ATU) "Corona Mortis" komandaları, rus bölməsi üzrə isə Bakı Dövlət Universitetinin (BDU) "Katyuşa BQU" və Azərbaycan Dillər Universitetinin (ADU) "Flatwhite" komandaları yarışıb.

Debat hakimlərinin qərarına əsasən, AMİU-nun "Hər ehtimala qarşı" və BDU-nun "Katyuşa BQU" komandaları qalib elan olunub.

Forumun hər iki bölmə üzrə ən yaxşı 20 natiqi də müəyyən olub. Belə ki, Azərbaycan bölməsi üzrə Debat Forumunun ən yaxşı natiqi ATU-nun tələbəsi Yunis Məmmədli (62.2 bal), rus bölməsi üzrə isə BDU-nun tələbəsi Ləman Mehrəliyeva (61.2 bal) olub.

Tədbirdə təşkilatın fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub və qaliblər mükafatlandırılıb.



Qeyd olunub ki, "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin aparıcı və ən kütləvi proqramlarından biri olan Milli Debat Proqramı respublikanın 45 rayonu və böyük şəhərlərini əhatə etməklə, Bakı şəhəri və 13 regional nümayəndəliyi, 60-dan çox debat klubunu özündə birləşdirir. İndiyədək Milli Debat Proqramı çərçivəsində həyata keçirilən lay-

# "Bu qədim çinarın kölgəsi daim ona dəyər verən tələbələrin üzərindədir"

***Mən Bakı Dövlət Universitetinin tələbəsi Athar Mahmud. Bir neçə ildir ki, qardaş ölkə Pakistandan təhsil üçün Azərbaycana gəlmişəm. Hazırda Azərbaycanın ən tanınmış universitetlərindən biri olan Bakı Dövlət Universitetində Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində bakalavr pilləsini bitirdikdən sonra magistratura təhsili alıram.*** İndi isə bir xarici tələbə kimi bu universitetinin fəaliyyəti haqqında və bu universitetdə təhsil almağın imkanları ilə bağlı görüşlərimi bölüşmək istəyirəm. Bakı Dövlət Universiteti Azərbaycan Respublikasının ən prestijli və brend universitetlərindən biridir. Bu prestijə sahib olmasının əsas səbəbi isə Bakı Dövlət Universitetinin möhkəm əsaslara malik tarixi ilə bağlıdır. 1919-cu ildən tələbələrə qucaq açan, onların hər bir xatirəsinə yuva olan universitetimizin hazırda 102 yaşı var. Bu 102 ilin hər günündə, hər ayında, hər ilində yeni-yeni uğurlara imza atan bu əzəmətli binanın hər daşında bir tarix var. Bu qədim çinar illərdən bəri tələbələr üçün elm ocağı olmuşdur və onun kölgəsi daim ona dəyər verən tələbələrin üzərindədir. İndi bu böyük ocaq öz dəyərli səltənətini qoruy-




ub saxlamaqdadır. Universitetimiz gələcəyin savadlı kadrlarına, dahilərinə dayaq olmağa, onların yoluna işıq saçmağa və tələbələrinin qayğısına qalmağa davam edir. Bir xarici tələbə kimi burada təhsil almaq üçün imkanlar olduqca genişdir. Hər şeydən əvvəl səmimi və mehriban kollektivi ilə seçilən universitetimizdə çoxsaylı ixtisaslaşmış kadrlar, savadlı müəllim heyəti və xarici ölkələrdən universitetimizdə fəaliyyət üçün gəlmiş tədris işçiləri var.

Və bu da bizə təhsil keyfiyyətinin nə qədər üstün olduğundan xəbər verir. Təbii ki, universitetimiz sadəcə kollektiv heyəti ilə deyil həmçinin resurs imkanları, əlçatımlı tədris vasitələri və təhsil keyfiyyətinə təsir göstərə biləcək bir çox texniki vasitələrlə təmin olunub. Son model texniki qurğularla təchiz olunmuş auditoriyaları və laboratoriyaları, İT və modern avadanlıqları və eləcə də bir çox texniki imkanları tədrisi daha da keyfiyyətli edir. Bunu da qeyd etməliyəm ki, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası respublikanın ən zəngin ali məktəb kitabxanalarından biridir. Kitabxanamız tələbələrin bütün dərs vəsaitləri ilə tam təmin olunmasında və əlavə qaynaqların əldə edilməsinə hərtərəfli yardım edir. Universitet rəhbərliyi tələbələrin dərs vəsaitlərini tam şəkildə əldə etməsində və kitabxananın ən son vəsaitlərlə təmin olunmasında nəzarəti əlində saxlayır.

Bakı Dövlət Universitetində tələbələrlə bağlı qəbul olunan bütün qərarlarda bu qurumun rəyi nəzərə alınır. Və tələbələrin təhsillə, tədris həyatı ilə bağlı bütün problemləri tam şəkildə həll olunur deyə bilərəm. Universitetimizin tərkibində bir çox klub fəaliyyət göstərir. Bu klublar tələbələrə dünya görüşünü artmaqla yanaşı, onlara sevdiyi fəaliyyət üzrə özünü sınamaq və inkişaf etdirmək imkanı verir. Universitet nəzdində fəaliyyət göstərən bu klublara Gənc İstedadlar Klubunu, Kitab Klubunu, Debat Klubunu misal göstərə bilərəm. Bundan əlavə, diqqət cəlb edən klublardan biri olan Mədəniyyət-yaradıcılıq Mərkəzi özfəaliyyət klubunun bazasında yaradılıb. Mərkəzdə qızlardan və oğlanlardan ibarət İnstrumental və Rəqs ansamblı, Xor kollektivi və Dram dərnəyi fəaliyyət göstərir. Tələbə fəaliyyət köşəsində rəsm və dizayn dərsləri, musiqi dərsləri, idman dərsləri və həmçinin çeşidli fəaliyyət sahələri ilə bağlı dərnəklərə üzv olmaq imkanına da sahibsiniz. Bunlardan əlavə, universitetimizdə hər il müxtəlif maraqlı tədbirlər təşkil olunur. Bakı Dövlət Universiteti dünyanın elm və təhsil məkanında nüfuzunu daha da artırmaq, yeni universitet assosiasiyalarına qəbul olunmaq, Avropanın elm və təhsil məkanında gedən inteqrasiya proseslərinə qoşularaq bu sahədə səmərəli fəaliyyət göstərmək, müxtəlif beynəlxalq proqramların iştirakçısı olmaq məqsədilə dünyanın aparıcı ali məktəbləri, elm və təhsil müəssisələri, müxtəlif qurumları ilə sıx əlaqələr yaradıb.

P.S. Athar Mahmud ilk ali təhsilini Pakistanda Jurnalistika üzrə alıb. Artıq 7 ildir ki, Azərbaycanda yaşayır, Pakistan Mədəniyyət Mərkəzinin rəhbəridir. Azərbaycan dilini mükəmməl bilməsi onu tələbə dostlarının və müəllimlərinin sevimlisinə çevirib. Azərbaycanlı xanımla ailə qurub, övladı var.

# BDU-da Ağdaban soyqırımının qurbanları anılıb

***Aprelin 11-də Kitabxanaçılıq-informasiya fakültəsinin təşkilatçılığı ilə Ağdaban soyqırımının 30-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***



Əvvəlcə Ağdaban soyqırımı qurbanlarının və Qarabağ uğrunda şəhid olan bütün soydaşlarımızın əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Sonra Yeni Azərbaycan Partiyası Kəlbəcər rayon təşkilatı və "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi tərəfindən ərsəyə gətirilən, Ağdaban soyqırımına həsr olunan sənədli film nümayiş etdirilib. Sənədli filmdə qanlı cinayətin dəhşətləri hadisə şahidlərinin məlumatları və digər tarixi faktlarla öz əksini tapıb.

Anım tədbirində BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hacıbaba Mustafayev, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan və fakültənin tələbələri çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, 1992-ci ilin aprelin 7-dən 8-nə keçən gecə baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biridir. Soyqırım zamanı Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndi yandırılıb, kəndin 800 nəfərə yaxın əhalisinə amansız işgəncələr verilib, kənd sakinlərindən 33 nəfər vəhşicəsinə öldürülüb. Diridiri yandırılanlardan 8 nəfəri 90-100 yaşlı qoca, 2 nəfəri uşaq, 7-si qadın olub. Xeyli insan girov götürülüb və itkin düşüb. Hadisə zamanı klassik Azərbaycan ədəbiyyatının nümayəndələri ağdabanlı şair Qurbanın və onun oğlu Dədə Şəmşirin nadir və qiymətli əlyazmaları məqsədli şəkildə məhv edilib.

Natiqlər Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə tarixi zəfərlə bitən 44 günlük Vətən müharibəsində Ağdaban soyqırımının qurbanlarının da qisasının alındığını, artıq ikinci ildir ki, bu dəhşətli soyqırımının ildönümünün əvvəlki illərdən fərqli olaraq yalnız ürək ağrısı ilə deyil, Qarabağımızın azadlığı şəraitində həm də təsəlli və qürur hissləri ilə qeyd olunduğunu vurğulayıblar.

# BDU-nun əməkdaş və tələbələri "Qarabağın su ehtiyatlarının hesablama metodları" adlı təlimdə

***Aprelin 5-də Geologiya fakültəsinin əməkdaş və tələbələri "Azərsu" ASC-nin "Sudan səmərəli istifadənin metodları" adlı layihəsinin növbəti günündə "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutunun direktor müavini Rəşail İsmayılovun təqdimatında "Qarabağın su ehtiyatlarının hesablama metodları" adlı təlimdə iştirak ediblər.***




Tədbirdə fakültənin Tələbə Gənclər Təşkilatının sədri Samirə Novruzova, Geologiya fakültəsinin Hidrogeologiya və mühəndis geologiyası kafedrasının müəllimləri - Ələkbər Mirzəyev və Günay Hüseynova, həmçinin bir qrup tələbə iştirak edib.

Təlimin keçirilməsində məqsəd sudan səmərəli istifadənin metodları, su haqqında elmi biliklərin artırılmasına töhfə vermək və cəmiyyətin diqqətini bu sahəyə yönəltməkdən ibarətdir.

İştirakçılar həmçinin "Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi"nə ekskursiya ediblər.

# "İntihar hallarının qarşısının alınması" mövzusunda təlim

***Aprelin 4-də Bakı Dövlət Universitetində Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) və Gənclərin İnkişafı və Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə "İntihar hallarının qarşısının alınması" mövzusunda təlim keçirilib.***



Təlimdə BDU-nun şöbə müdiri Ramin Səmədov, Gənclər Fondunun əməkdaşı Çinarə Kazımzadə və ATGTİ-nin nümayəndəsi Aynurə Salmanlı çıxış edərək bu istiqamətdə həyata keçirilən layihələrdən danışıblar. Daha sonra LOQOS Psixoloji və Nitq İnkişaf Mərkəzinin psixoloqu Emin Səfərov son zamanlar gənclər arasında intihar hallarının artmasının əsas psixoloji səbəbləri (bullinq halları, psixologiyanın pozulması, ailə münaqişəsi, internetdən asılılıq, məcburetmə, erkən nigah, maddi durumun ağır olması, sosial problemlər və s.) və bunların aradan qaldırılmasının yolları barədə geniş məlumat verib.

Təlim işini interaktiv formada davam etdirib.

# Mediasiya Şurasının üzvləri ilə görüş

***Aprelin 11-də Sosial elmlər və psixologiya fakültəsində Mediasiya Şurasının üzvləri ilə görüş keçirilib.***

Sosial iş kafedrasının təşkilatçılığı ilə keçirilən görüşdə Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov, 20 saylı vəkil bürosunun müdiri, Mediasiya Şurasının işçi qrupunun rəhbəri və Bakı 2 saylı Mediasiya təşkilatının rəhbəri İlhamə Həsənova, BDU-nun Sosial iş kafedrasının müdiri, dosent Üzeyir Şəfiyev, həmçinin Mediasiya Şurasının əməkdaşları iştirak ediblər.

Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə çıxış edib. O, Mediasiya Şurası ilə BDU arasında əməkdaşlıqdan, mediasiyanın inkişaf perspektivindən, sosial iş ixtisasında təhsil alan tələbələrin könüllü kimi fəaliyyətinin zəruriliyi, eləcə də onların gələcəkdə mediasiya qurumlarında çalışmaq imkanlarından bəhs edib.

Mediasiya Şurasının işçi qrupunun rəhbəri İlhamə Həsənova sosial işçilərin mediasiya qurumlarına verə biləcəyi töhfələr, mediasiya sistemində iş mexanizmi barədə fikirlərini bölüşüb.

Görüş müzakirə formasında davam edib. İştirakçılar tərəfindən tələbələrin sualları cavablandırılıb.

Görüşün sonunda tələbələrə müxtəlif kitablar hədiyyə edilib.

# Filologiya fakültəsində "Söz" Yaradıcılıq Birliyinin görüşü keçirilib

***Aprelin 11-də Filologiya fakültəsində "Söz" Yaradıcılıq Birliyinin növbəti görüşü keçirilib.***

Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov "Söz" Yaradıcılıq Birliyinin fəaliyyətinin daha da aktivləşməsi üçün görüləcək işlərdən, qarşıda dayanan əsas vəzifələrdən söz açıb. Bildirib ki, ölkənin tanınmış ədəbiyyat xadimlərinin Birliyin üzvləri ilə mütəmadi görüşləri təşkil olunacaq. Bədii yaradıcılıqla məşğul olan tələbələr Birlikdə fəaliyyət göstərərək daha da inkişaf edəcəklər. BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Vaqif Sultanlı Birliyin üzvlərinə uğurlar arzulayıb. Vaqif Sultanlı tələbələrə yazı texnikasının xüsusiyyətlərindən söz açıb, müasir ədəbi prosesi daim izləmələrini tövsiyə edib.

Görüşdə fakültənin II kurs magistrantı Gülay Tahirli, II kurs tələbəsi Ayna Əhmədli, I kurs tələbəsi Tərlan Allahverdiyeva öz bədii yaradıcılıqlarından nümunələr səsləndiriblər.

Daha sonra həmin nümunələrin geniş müzakirəsi aparılıb.

# "Şeir gecəsi" adlı qiraət müsabiqəsi

***Aprelin 11-də Filologiya fakültəsi üzrə Könüllülər Təşkilatı "Şeir gecəsi" adlı qiraət müsabiqəsi təşkil edib.*** Müsabiqədə altı tələbənin müxtəlif mövzular üzrə ifadəli səsləndirdikləri şeirlər münsiflər heyətinin üzvləri - Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti Rəhilə Quliyeva və "Türkoloji araşdırmalar" ETL-in elmi işçisi Pərvin Eyvazov tərəfindən dəyərləndirilib. Dəyərləndirmənin nəticələrinə əsasən, Filologiya fakültəsinin tələbəsi Cahan Salmanova birinci, Kitabxanaçılıq və informasiya fakültəsinin tələbəsi Xalidə Bayramova ikinci, Fizika fakültəsinin tələbəsi Səma Mehdili üçüncü yerə layiq görülüblər. Sonda qaliblər diplomla mükafatlandırılıb.

# Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində ustad dərsi keçirilib



*Aprelin 4-də Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə ustad dərsi keçirilib.*

Ustad dərsində iqtisad elmləri doktoru, professor Mübariz Bağırov "Bankların aktiv əməliyyatları" mövzusunda məruzə ilə çıxış edib. Mübariz Bağırov əvvəlcə son dövrlər BDU-da təşkil olunan ustad dərslərini yüksək qiymətləndirdiyini bildirib. Məruzəçi bankların aktiv əməliyyatlarının məqsədi, mahiyyəti, müasir dövrdəki əhəmiyyəti barədə məlumat verib.

Ustad dərsi auditoriya tərəfindən maraqla dinlənilib, mövzu ciddi polemikalara səbəb olub. Mübariz Bağırov dinləyicilərin mövzu ilə bağlı çoxsaylı suallarını cavablandırıb.

# "Qarabağın alban-qıpçaq abidələri" mövzusunda elmi seminar

*Aprelin 21-də Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrası və BDU-nun tarixi muzeyinin birgə təşkilatçılığı ilə 18 aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş "Qarabağın alban-qıpçaq abidələri" adlı elmi seminar keçirilib. Seminarda fakültənin professor-müəllim heyəti, doktorant və magistrantlar iştirak ediblər.*

Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova Qarabağın alban-qıpçaq abidələri ilə bağlı son elmi araşdırmaların əhəmiyyəti haqqında qısa məlumat verib. Keçirilən bu tip elmi tədbirlərin gənc tədqiqatçı və magistrantların elmi fəaliyyətini stimullaşdırdığını, onları Tarix fakültəsinin təcrübəli müəllimlərinin son elmi tədqiqatları haqqında məlumatlandırdığını bildirib.

Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor Yaqub Mahmudov "Qarabağın alban-qıpçaq abidələri" mövzusunda geniş məruzə edib.

Seminar Azərbaycan Milli Kitabxanasının əməkdaşı Elnur Nəciyevin "Qarabağın alban-qıpçaq tarixinə dair", AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Qarabağ tarixi şöbəsinin müdiri Güntəkin Nəcəflinin "Azərbaycan alban-xristian irsinin saxtalaşdırılmasına qarşı dəyərli tədqiqat" mövzusunda məruzələri ilə davam edib.

Qeyd edək ki, akademik Yaqub Mahmudovun rəhbərlik etdiyi layihə əsasında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Azərbaycan Tarixçiləri İctimai Birliyinin dəstəyi ilə Ramin Əlizadə və Elnur Nəciyevin müəllifi olduğu "Qarabağın alban-qıpçaq tarixinə dair" adlı kitab nəşr olunub (akademik Yaqub Mahmudov həmin əsərin ön söz müəllifidir). Elmi seminar auditoriya tərəfindən maraqla dinlənilib, məruzəçi iştirakçıların mövzu ilə bağlı çoxsaylı suallarını cavablandırıb.

Sonda "Qarabağın alban-qıpçaq tarixinə dair" kitabı iştirakçılara hədiyyə olunub.

# BDU əməkdaşları Eskişehir Texniki Universitetində "Erasmus+ Təlim İşçilərinin Mobillik Proqramı-KA107" təlimində iştirak ediblər

*Aprelin 8-də Bakı Dövlət Universitetinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin (TİİMM) direktor müavini Mustafa Muradov, Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının müəllimi, kimya üzrə fəlsəfə doktoru Ofeliya Balayeva və TİİMM-nin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının əməkdaşı Günel Əliyeva Türkiyə Respublikasının Eskişehir Texniki Universitetində "Erasmus+ Təlim İşçilərinin Mobillik Proqramı-KA107" layihəsi çərçivəsində müəllim və elmi tədqiqatçıların təlimində iştirak ediblər.*



Təlim çərçivəsində keçirilən seminarlarda Universitetin rektoru, professor Tuncay Döğeroğlu, prorektoru, professor Gürsoy Arslan, Mühəndislik fakültəsinin dekanı, professor Onur Kaya, Kimya kafedrasının müdiri, professor Nezihe Ayas, Bakı Dövlət Universiteti, Kazan Milli Araşdırma Texnologiyaları Universiteti və Livanın Kaslik Holi Sipirit Universitetinin professor-müəllim heyəti iştirak ediblər.

Seminarlarda Mustafa Muradov "SILAR üsulu ilə formalaşma zamanı nanomateriallarin böyüməsinin xüsusiyyətləri" və "Sənayenin akademik sahələrlə əməkdaşlığı", Ofeliya Balayeva onlayn formada "Laylı ikiqat hidroksidlər və polimerlər əsasında nanokompozitlər" və "Distant təhsildə aktiv tədris metodları", Günel Əliyeva isə "Təkmilləşdirilmiş laboratoriya təlimatının hazırlanması" və "Supramolekulyar təşkil və materialların dizaynı" mövzularında təqdimatlarla çıxış ediblər.

Təlim zamanı iştirakçılar Kimya mühəndisliyi bölümünün tədris və tədqiqat laboratoriyaları ilə tanış olublar. Bakı Dövlət Universiteti, Eskişehir Texniki Universiteti və Kaslik Holi Sipirit Universitetinin nümayəndələrinin üçtərəfli görüşündə Erasmus layihələri çərçivəsində əməkdaşlıq, birgə tədqiqatların keçirilməsi, ikili diplom və tələbələrin hərəkətlilik proqramları barədə müzakirələr aparılıb.

Təlim çərçivəsində Eskişehir Texniki Universitetinin əməkdaşları universitetlə tanışlıq tədbirləri təşkil ediblər. İştirakçılar Eskişehir Texniki Universitetinin Yunus Emre Rəsədxanasında olublar. Rəsədxananın elmi işçisi, dosent Mətin Altan aparılan tədqiqat işləri barədə təqdimatla çıxış edib. Təlimçilər Eskişehir Texniki Universitetinin Aviasiya və Astronavtika fakültəsində olublar. Fakültənin dekan müavini, professor Enis Turhan Turgut təlimçiləri maddi-texniki baza və tədris olunan dərslərlə tanış edib.

Təlimin sonunda üçtərəfli görüşdə müəyyən olunan məsələlər və aktual problemlər təkrar müzakirə olunub və həyata keçirilə biləcək tədris və tədqiqat layihələri müəyyənləşdirilib.

# Frankofoniya Günlərinə həsr olunmuş tədbir keçirilib

*Aprelin 15-də Filologiya fakültəsində Alman və fransız dilləri kafedrasının təşəbbüsü ilə Azərbaycanda Frankofoniya Günlərinə həsr olunmuş "Gələcəyin frankofoniyası" adlı tədbir keçirilib. Tədbirdə Azərbaycanda Fransız İnstitutunun icraçı direktoru Conatan Hakan Ünlü, fakültə rəhbərliyi, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.*



BDU-nun Filologiya fakültəsinin dekanı Elçin Məmmədov Fransa və Azərbaycanın təhsil sahəsindəki əlaqələrindən, filologiya istiqaməti üzrə BDU ilə Fransanın nüfuzlu universitetləri arasında ikili diplom və mübadilə proqramlarının tətbiqinin zəruriliyindən, ölkəmizdə fransız dilinin tədrisinə dair görülən işlərdən, bu yöndə Alman və fransız dilləri kafedrasının həyata keçirdiyi təşəbbüslərdən danışıb. Bildirib ki, hazırda Frankofoniya Günləri çərçivəsində Bakıda müxtəlif tədbirlər keçirilir, bunlardan biri də BDU-nun Filologiya fakültəsində təşkil olunub və bunu Azərbaycan-Fransa arasında təhsil sahəsindəki əlaqələrin inkişafı baxımından əsas töhfələrdən biri hesab etmək olar.

Azərbaycanda Fransız İnstitutunun icraçı direktoru Conatan Hakan Ünlü Frankofoniya Günlərinin hər il bütün dünyada, fransızdilli və fransız dilinin tədris edildiyi ölkələrdə, o cümlədən Azərbaycanda qeyd olunduğunu deyib. Bildirib ki, frankofoniyanın sahibkarlıq, rəqəmsal texnologiya və davamlı inkişaf sahələrində gənclərə dəstəyini gücləndirmək üçün builki Frankofoniya Günləri "Gələcəyin frankofoniyası" adı ilə təşkil olunub. Qonaq COVID-19 virusu ilə əlaqədar təxirə düşən Frankofoniya Günlərinin yenidən keçirilməsini ölkəmizin mədəni həyatında mühüm hadisələrdən biri kimi dəyərləndirib.

Alman və fransız dilləri kafedrasının müdiri Elmira Fərəcullayeva Frankofoniya Günlərinə həsr olunmuş tədbirlərin əhəmiyyətinə diqqət çəkərək, bu cür addımların fransız dilinin tədrisi və təbliği işinə töhfələr verdiyini vurğulayıb.

Tədbir ədəbi-bədii çıxışlarla davam edib.

Alman və fransız dilləri kafedrasının müəllimi Azelma Həsənova Fransanın Sarbonna Universitetinin azərbaycanlı məzunu, Azərbaycanda ilk fransız dili müəllimi Əhməd bəy Ağaoğlunun həyatı və fəaliyyəti haqqında məlumat verib, sonra görkəmli ədib və ictimai xadim haqqında sənədli film nümayiş olunub.

Tədbirdə Filologiya, Tarix, Biologiya, Sosial elmlər və psixologiya fakültələrinin tələbələri müxtəlif mövzularda çıxışlar edib, fransız dilində şeirlər səsləndirib, mahnı və rəqslər ifa ediblər, həmçinin fransız mətbəxinə dair təamlar nümayiş etdirilib.

Sonda Conatan Hakan Ünlü Alman və fransız dilləri kafedrasına kitablar hədiyyə edib.

# BDU-da Azərbaycanın ali məktəblərində təhsil alan xarici tələbələrlə görüş

***Aprelin 6-da Bakı Dövlət Universitetində Təhsil və Xarici İşlər nazirliklərinin nümayəndələrinin iştirakı ilə Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AİDA) təqaüd proqramı ilə Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan xarici tələbələrlə görüş keçirilib.***

Görüşdə BDU, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Xəzər Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Tibb Universiteti və Azərbaycan Texniki Universitetində təhsil alan əcnəbi doktorantlar iştirak ediblər.

Görüşün məqsədi əcnəbi tələbələrə təqdim edilən imkanlar barədə məlumat vermək, qarşılaşdıqları problemlərin həllində dəstək olmaqdır.



Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Tural Əhmədov çıxışında Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2017-ci il tarixli, 3457 nömrəli və 10 yanvar 2018-ci il tarixli, 3567 nömrəli sərəncamları ilə İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində tədris dilinə uyğun hazırlıq kurslarında və ali təhsilin bakalavriat, magistratura, doktorantura, tibb təhsili üzrə əsas təhsil və rezidentura səviyyələrində təhsil qrantı proqramlarının təsis edildiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı ölkə kimi tanınıb. Multikulturalizm və tolerantlıq tarixən və indi azərbaycanlıların həyat tərzi olub.

Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin rəisi Elməddin Mehdiyev çıxış edərək bildirib ki, 5 il müddətində davam edəcək proqramlar çərçivəsində ümumilikdə 200 əcnəbi tələbənin təhsil qrantı əsasında ölkənin ali təhsil müəssisələrində təhsil alması planlaşdırılıb. Verilən təhsil qrantının məbləğinə təhsil haqqı, aylıq təqaüd xərcləri (viza, qeydiyyat, yataqxana və ya mənzil kirayəsi, gündəlik qidalanma, zəruri tədris ədəbiyyatı ilə təminat, nəqliyyatdan (taksi xidmətindən başqa) istifadə, kommunal xidmətlər, ildə bir dəfə ölkələrinə gediş-gəliş) və ilkin tibbi yardım daxildir.

2018-2019-cu tədris ili üzrə həyata keçirilən təhsil qrantı proqramlarına qəbulun nəticələrinə əsasən, İslam Əməkdaşlıq Təşkilatı üzrə 14, Qoşulmama Hərəkatı üzrə isə 15 ölkənin ümumilikdə 40 vətəndaşı Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb.

Hazırda müxtəlif ölkələrin vətəndaşları təhsil qrantı proqramları çərçivəsində Azərbaycanda təhsil alırlar. 2021-2022-ci tədris ili üzrə həyata keçirilən təhsil qrantı proqramlarına qəbulun nəticələrinə əsasən, İslam Əməkdaşlıq Təşkilatı üzrə 19, Qoşulmama Hərəkatı üzrə isə 18 ölkənin ümumilikdə 40 vətəndaşı Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb.

Görüşdə əcnəbi tələbələri maraqlandıran məsələlər müzakirə olunub, onların sualları cavablandırılıb.

# Azərbaycanlı Tələbə və Məzunlar Platformasının məlumat sessiyası keçirilib

***Aprelin 14-də Bakı Dövlət Universitetində Azərbaycanlı Tələbə və Məzunlar Platformasının (ASAP) məlumat sessiyası olub.***

Sessiya BDU-nun Karyera və məzunlarla əlaqə sektoru, Tələbə Gənclər Təşkilatı və ASAP-ın birgə təşkilatçılığı ilə keçirilib.

Sessiyanın keçirilməsində məqsəd BDU tələbələrini ASAP-ın missiya və məqsədləri ilə tanış etmək, eləcə də onların xarici ölkələrdə təhsilə marağını artırmaqdır. Tədbirdə xaricdə təhsil almaq arzusunda olan tələbələr iştirak ediblər.



Sessiyada çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov dövlət gənclər siyasəti haqqında danışıb, xaricdə təhsil almaq arzusunda olan tələbələr üçün bu cür sessiyaların keçirilməsinin vacibliyini vurğulayıb. O, həmçinin gənclərə dəstək vermək üçün BDU tərəfindən atılan addımları diqqətə çatdırıb.

Qeyd olunub ki, Azərbaycanın aparıcı universitetlərindən biri olan və geniş mübadilə proqramına malik BDU ASAP üçün ən mühüm tərəfdaşlardandır.

Daha sonra ASAP komandasının üzvləri interaktiv formada tələbələri məlumatlandırıb, təşkilatın fəaliyyət istiqamətləri haqqında təqdimatla çıxış ediblər.

# BDU-nun tələbələri Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda

***Aprelin 18-də Ekologiya və torpaqşünaslıq fakültəsinin I, II və III kurs tələbələri fakültənin dekanı Akif Ağbabalı və Universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hacıbaba Mustafayevin rəhbərliyi ilə Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun fəaliyyəti ilə tanış olublar.***

Müəllim-tələbə heyətinə institutdakı müasir laboratoriyaların iş rejimi, gübrələmə, bitki mühafizə tədbirlərinin təşkilində tətbiq olunan innovasiya sistemləri göstərilib. Qonaqlar institutun istixanalarına baş çəkiblər. Məlumat verilib ki, istixanalarda xəstəliklərdən mühafizə olunmuş şəraitdə seleksiya və toxumçuluq işləri aparılır, yeni sortlar yaradılaraq dövlət sort sınağına təqdim olunur. Nümayəndə heyəti Toxum Satış Mərkəzində fermerlərə təklif olunan sağlam nümunələrlə də tanış olublar.



İnstitutun mütəxəssisləri müasir cihaz və avadanlıqlar, onların iş prinsipləri haqqında geniş məlumat verib, tələbələri maraqlandıran sualları cavablandırıblar.

# Azərbaycan İlahiyyat İnstitutunun rektoru BDU-da ustad dərsi keçib



***Aprelin 20-də Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə "İslam mədəniyyətində kitabxanalar" mövzusunda ustad dərsi keçirilib. Ustad dərsində Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov mövzu ilə bağlı məruzə edib.***

Rektor Aqil Şirinov tarixi xronologiya əsasında islam dünyasında meydana gələn və formalaşan kitabxanaların fəaliyyətindən bəhs edib. Bildirib ki, islam coğrafiyasında yaşanan tərəqqi və intibahda kitabxanalar müstəsna rol oynayıblar. İslam mədəniyyətində ilk kitabxanaların Əməvilər dövründə məscidlərdə yarandığını qeyd edən natiq həmin dövrdə mövcud olmuş məscid kitabxanaları, şəxsi kitabxanalar və saray kitabxanaları barədə məlumatları diqqətə çatdırıb. Qeyd edib ki, Əməvilər dövründə alimlərin və tələbələrin daha çox istifadə etdiyi ilk böyük kitabxana Dəməşqdə qurulan "Beytülhikmə" (hikmət evi) olub. Mühazirədə həmçinin Səlcuqilər dövründə məşhur vəzir Nizamülmülkün qurduğu "Nizamiyyə" mədrəsələrinin nəzdindəki kitabxanaların, Osmanlılar dövründə qurulan və hazırda da fəaliyyət göstərən, nadir əlyazmaların qorunub saxlanıldığı Fateh və Süleymaniyyə kitabxanalarının fəaliyyəti əksini tapıb.

Orta əsrlərdə Azərbaycanda kitab və kitabxana mədəniyyətinin inkişafından danışan Aqil Şirinov Ağqoyunlular, Qaraqoyunlular və Səfəvilər dövründə bu sahənin inkişafından bəhs edib.

Ustad dərsi auditoriya tərəfindən maraqla dinlənilib, məruzəçi dinləyicilərin mövzu ilə bağlı çoxsaylı suallarını cavablandırıb.

## Millət vəkili Ceyhun Məmmədovla görüş keçirilib

***Aprelin 12-də Bakı Dövlət Universitetində BDU və ASAN könüllülərinin birgə təşkilatçılığı ilə millət vəkili Ceyhun Məmmədovla görüş keçirilib.***



Aprel döyüşlərinin ildönümünə həsr olunmuş görüşdə millət vəkili gənclərin vətənpərvərlik ruhunda yetişməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb, gənclərə öz tövsiyələrini verib. Qeyd edib ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuz Aprel döyüşlərində layiqli qələbə qazanıb və düşmən təxribatının qarşısını rəşadətlə alıb. Nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarında 2000 hektardan çox torpağımızın və vacib yüksəkliklərin işğalçılardan azad edilməsindən bəhs edib. Millət vəkili Aprel döyüşlərinin Vətən müharibəsindəki şanlı qələbəmizin təməli olduğunu və xalqın vətənpərvərlik ruhunu alovlandırdığını deyib.

Daha sonra könüllülərin mövzu ilə bağlı sualları cavablandırılıb.

## BDU-nun tələbələri Hərbi Qənimətlər Parkını ziyarət ediblər

***Aprelin 4-də Kitabxanaçılıq-informasiya fakültəsinin bir qrup tələbəsi Aprel döyüşlərinin ildönümü münasibətilə Hərbi Qənimətlər Parkını ziyarət edib. Ziyarət zamanı tələbələr Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmənin növbəti təxribatlarına cavab kimi başlayan və tarixi zəfərlə başa çatan Vətən müharibəsi dövründə hərbi qənimət kimi ələ keçirilmiş texnika, döyüş sursatı və digər eksponatlarla tanış olublar.***



Ekskursiya tələbələrdə böyük təəssürat yaradıb, onlara qürurlu anlar yaşadıb. Tələbələr sərgilənən eksponatlar sayəsində bölgənin ən peşəkar ordusu olan Azərbaycan Silahlı Qüvvələrinin yenilməzliyinə, Vətən müharibəsində igidliklər göstərən soydaşlarımızın şücaətlərinə heyrətlərini bir daha ifadə ediblər.

## İnformasiya müharibəsində Azərbaycan gənclərinin rolu müzakirə edilib

***Aprelin 11-də Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə "İnformasiya müharibəsində Azərbaycan gənclərinin rolu" adlı onlayn tədbir keçirilib.***

Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin TGT sədri Röya Abbasova müasir dünyada informasiya müharibəsinin aktuallığından, ölkəmizdə bu sahədə əldə olunan uğurlardan bəhs edib. Qeyd olunub ki, ermənilərin yalanlarının ifşa edilməsi, Qarabağla bağlı həqiqətlərin daha geniş ictimaiyyətə çatdırılması gənclərin qarşısında duran mühüm vəzifələrdən biridir.

Daha sonra fakültə TGT-nin sədr müavini Toğrul Məlikzadə mövzu ilə bağlı məruzə edib. Bildirib ki, 44 günlük Vətən müharibəsi zamanı və ondan sonrakı proseslərdə Azərbaycan gəncləri müstəsna rol oynayıblar. Bununla yanaşı, ermənilərin işğalı zamanı dinc əhalinin üzləşdiyi məhrumiyyətlər barədə məlumatların dünya ictimaiyyətinə tam və hərtərəfli şəkildə çatdırılması üçün gənclərin məlumatlılığının artırılması vacibdir. O, çıxışında gənclərimizin informasiya müharibəsində bundan sonra da əzmlə çalışacaqlarına əminliyini ifadə edib.

Tədbir qarşılıqlı diskussiya şəklində davam edib.

## BDU könüllüləri "Sağlam həyat günləri" layihəsində iştirak ediblər

***Aprelin 12-də Bakı Dövlət Universitetinin könüllüləri Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Beynəlxalq İdman Günü çərçivəsində keçirilən "Sağlam həyat günləri"ndə iştirak ediblər. Könüllülər müxtəlif yaş qrupları üzrə idman normativlərini yerinə yetirərək qızıl, gümüş və bürünc sertifikatlarla təltif ediliblər.***



Qeyd edək ki, "Sağlam həyat günləri" layihəsində iştirakçılar qaçış, yerindən uzunluğa tullanma, ağırlıqqaldırma, turnik və s. normativlər üzrə fiziki bacarıqlarını sınayıblar.

## Təhsil Tələbə Krediti Fondunun nümayəndələri BDU-da görüş keçiriblər



***Aprelin 4-də Təhsil Tələbə Krediti Fondunun nümayəndələri Bakı Dövlət Universitetində görüş keçiriblər.***

Görüşdə Fondun əməkdaşları təhsil tələbə kreditinin verilməsi qaydaları barədə ətraflı məlumat verib. Tələbələrin bu istiqamətdə maarifləndirilməsi yolları müzakirə olunub.

Təhsil Tələbə Krediti Fondunun əsas missiyası təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanların yaradılmasıdır.

Bildirilib ki, payız semestrində BDU-da 194 tələbə təhsil tələbə kreditindən yararlanıb. Bu sayın daha da artması üçün tələbələr arasında Fondun fəaliyyəti və təhsil tələbə kreditlərinin üstünlükləri ilə bağlı təbliğat işlərinin genişləndirilməsi barədə razılıq əldə olunub.

## "Xarıbülbül" adlı rəsm sərgisi

***Aprelin 8-də Kimya fakültəsində "Şuşa ili"nə həsr olunmuş "Xarıbülbül" adlı rəsm sərgisi keçirilib.***



Sərginin layihə rəhbəri fakültənin Tələbə Gənclər Təşkilatının sədr müavini Sevinc Həsənovadır. Sərgidə Kimya fakültəsinin tələbələrinin Şuşa və Qarabağla bağlı rəsmləri təqdim olunub. Tədbirin sonunda sərginin layihə rəhbəri və iştirakçıları Kimya fakültəsinin rəhbərliyi tərəfindən təşəkkürnamə ilə təltif olunublar.

## Bakı Dövlət Universitetində Kitab Evi açılıb

***Aprelin 21-də Bakı Dövlət Universitetində Kitab Evi açılıb. Açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Kitab Evi tələbə və əməkdaşların üz tutduqları əsas məkanlardan biri olacaq.*** Burada tələbələr elmin müxtəlif sahələrinə aid kitablar ala biləcəklər: "Kitab Evində dərs kitabları ilə yanaşı, bədii, elmi, siyasi ədəbiyyat, böyük Zəfərimizlə bağlı kitablar, eləcə də dəftərxana ləvazimatları əldə etmək mümkündür. Tələbələr tədris prosesində lazım olan bütün dərslik və vəsaitləri burada sifariş verə bilərlər. Gələcəkdə həmin vəsaitlərə tələbələrin planşetlərdə istifadə edə bilməsi üçün onların elektron versiyaları da əlavə olunacaq. Kitabların məzmunu və keyfiyyəti ilə bağlı tələbələrin rəyləri nəzərə alınacaq".




Elçin Babayev BDU-nun Elmi Kitabxanasının bu ilin sonuna qədər tam elektronlaşacağını vurğulayıb: "Gələcəkdə Kitab Evinin qarşısında günəş batareyaları və digər texnoloji qurğular da yerləşdiriləcək. Tədricən ən təkmil texnologiyaları BDU-ya gətirəcəyik".

# Qazanacağım bilik və təcrübəni Azərbaycanda bölüşmək istəyirəm…

***Müsahibim Bakı Dövlət Universitetinin adını zirvələrə qaldıran, savadlı tələbə Aysu İsmayılovadır. O, hələ təhsilini bitirmədən dünyanın 22 universitetindən magistratura üçün dəvət alıb. Hazırda Mexanika-Riyaziyyat fakültəsinin IV kurs tələbəsidir. Bir daha Aysunu təbrik edir, gələcək həyatında da yeni-yeni uğurlar diləyirik. Aysunun uğurlarından, demək olar ki, bütün saytlar, kanallar danışıb. Biz isə onu daha yaxından tanımaq istədik.***



-Aysu, istəyirəm ki, təhsil həyatının təməli olan məktəb dövründən başlayaq. Məktəb illərin necə keçib? Xüsusən abituriyent olduğun dövrü necə xatırlayırsan?

-Məktəb vaxtı, demək olar ki, həmişə əlaçı olmuşam. Texniki fənlərə xüsusi marağım olub, humanitar fənlərdən isə ən çox ədəbiyyatı sevmişəm. Riyaziyyatdan əvvəl çətinlik çəksəm də, yayda hazırlaşıb yuxarı sinif kitablarını da oxumuşdum və 7-ci sinifdə olanda öz dərslərimlə yanaşı 9-cu siniflərin də riyaziyyat dərslərində otururdum. 10-cu sinifdən etibarən mən artıq 1-ci qrupa hazırlaşacağıma qərar verdim. Dillərə də çox marağım və həvəsim olduğu üçün rus dili və ingilis dilindən hazırlaşmaq çətin olmadı. 10-cu sinfin mart aylarından başlayaraq Oksfordda Cherwell məktəbində 6 ay təhsil aldım və 11-ci sinifdə öz məktəbimə qayıtdım. Riyaziyyata çox marağım və həvəsim olduğu üçün Bakı Dövlət Universitetin "Riyaziyyat (təhsil ingilscə)" proqramına qəbul olmaq istədiyirdim. Və elə də oldu, avqust ayında mən 542 balla BDU-nun Riyaziyyat ixtisasına qəbul oldum.

***-Universitetə qəbul olduqdan sonra ixtisasınla bağlı əlavə kurs və ya təlimlərə getmisən?***

-Universitetə qəbul olduqdan sonra riyaziyyatdan fərqli fənlər keçdikcə mənim bu fənlərə həvəsim daha da artmağa başladı və mən dərslərdən əlavə riyazi kitablar oxuyurdum, "Youtube"-da dərslərə baxırdım. 1-ci kursda Proqramlaşdırma dərsi keçdikdən sonra isə mən riyaziyyatı proqramlaşdırma ilə əlaqələndirən hər hansısa bir sahə axtarmağa başladım. Bir neçə ay axtardıqdan sonra qarşıma Data Science, Artificial Intelligence kimi müasir sahələr çıxdı və mən online kurslar götürməyə başladım. 1 ildən sonra artıq mən riyazi biliklərimi proqramlaşdırma ilə tətbiq etməklə öz proyektlərimi hazırlayırdım. Ən əsas layihələrimdən biri dataları analiz etməklə "Paşa Sığorta"-ya müraciət edən müştərilər üçün Casco-nun maraqlı olub- olmamağını təyin etmək idi. Bu sahələrdə riyazi biliklərin nə qədər vacib olduğunu öyrəndim, çünki onları tətbiq etməklə bir neçə ciddi problemi həll etmək olar. Məsələn, riyazi tənlikləri şəkillərə tətbiq etmək olar, bu da yoldakı gizli kameraların maşının nömrələrini daha aydın şəkildə görünməsi üçün şərait yaradır. Və yaxud MRT və Tomoqrafiya şəkilləri keyfiyyətsiz olarsa, Neyron Şəbəkələri tətbiq etməklə onların keyfiyyətini artırmaq olar ki, bu da pasiyentlərin diaqnozunun daha dəqiq müəyyənləşməsinə kömək edər.

***-Şahmatla maraqlandığını müsahibələrində söyləmisən, bəs başqa hansı hobbilərin var? Boş vaxtlarını necə doldurmağı sevirsən?***

-Şahmatdan əlavə, boş vaxtlarımda skripka və piano çalmağı sevirəm. 7 il skripka və 5 il piano dərsləri almışam. Bunlardan başqa, proqramlaşdırmaya marağım olduğu üçün asudə vaxtlarımda proqramlaşdırma ilə oyunlar və saytlar düzəltməyi sevirəm. Gələcəkdə Süni İntellekt sahəsində biliklərimi dərinləşdirəndən sonra şahmat oyuna Süni İntellekti tətbiq etməyi planlaşdırıram. Gələcəkdə işləmək istədiyim proyektlərdən biri də fake xəbərləri və yaxud hansısa bir məhsul haqqında fake rəyləri Süni İntellektin köməkliyi ilə yüksək dəqiqliklə təyin edə bilməkdir. Bu da insanların mental sağlamlıqlarının qorunmasında böyük rol oyanayacaq.

-Bəzi insanlar deyir ki, universitet sadəcə diplom verir, biliyi isə müvafiq kurslarla, təcrübə proqramları ilə öyrənmək olur, bəs sən bu fikirlə nə dərəcədə razısan?

-Mənim fikrimcə, universitet fundamental biliklər verir, bu bilikləri də əlavə kurslar, təcrübə proqramları ilə artırmaq olar. Universitetdə seminarlar, kollokviumların olması tələbələrin vaxtlarını düzgün bölməyə və intizamlı olmağa kömək edir.

***-Tələbəlik illərində ən yaddaqalan hadisələrindən (istər qrup yoldaşların, istər müəllimlərlə bağlı) danışaq. Bakı Dövlət Universiteti xatirələrində necə qalacaq?***

-Bakı Dövlət Universitetində oxuduğum müddətdə çoxlu dostlar qazandım. Universitetə qəbul olanda qrupumuzda ən aşağı bal məndə idi, bu da məni dərslərimi yaxşı oxumağa daha çox motivasiya edirdi. Tələbə yoldaşlarımla birlikdə tez-tez kollokviumlara və imtahanlara hazırlaşırdıq. Kiminsə daha yaxşı bildiyi mövzu olanda digərlərinə izah edirdi, belə komanda şəklində hazırlaşdığımız üçün kollokviumları və imtahanları uğurla bitirirdik. Düşünürəm ki, çalışqan və motivasiyalı qrup yoldaşlarımın əhatəsində mən daha da intizamlı oldum və bu da mənim universiteti 95 ortalama ilə bitirməyimə kömək oldu. Müəllimlərim də mənə həmişə dəstək olublar. Dərslə bağlı suallarım olduqda həm distant dərslər, həm ənənəvi dərslər zamanı köməklik göstəriblər. Bundan əlavə, xarici universitetlərə müraciət etdiyim dövrdə mənəvi dəstək olublar və bacaracağıma inanıblar. Hər dəfə yeni qəbul aldığım zaman onlarla bölüşürdüm və onlar da mənim uğurlarıma mənim qədər çox sevinirdilər.

***-Bir az da gələcək barəsində danışaq. Məsələn, gələcək hədəflərin nələrdir? Azərbaycana qayıtdıqdan sonra nə etməyi düşünürsən?***

-Ümumiyyətlə, hədəflərimdən əvvəlcədən danışmağı sevmirəm, düşünürəm ki, ən yaxşısı hədəflərimə çatdıqdan sonra onlar haqqında məlumat verməkdir. Amma hazırda arzularımdan biri magistratura təhsilimi bitirdikdən sonra öz ölkəmə qayıdıb Azərbaycan elminə töhfə verməkdir. Çünki Süni İntellekt hələ bizim ölkədə çox inkişaf etməyib, amma onun köməkliyi ilə bir çox problemləri həll etmək olar və yaxud insanların həyatlarını daha asanlaşdırmaq olar. Məsələn, Süni İntellekt robotu şagird və tələbələrin dərslərini yoxlaya bilər, müəllim üçün uyğun cədvəl və yaxud material hazırlaya bilər. Bu da müəllimlərin administrativ işlərini məhdudlaşdıraraq onların dərs keçməyə daha da çox fokuslanmaqlarını və şəxsi həyatları üçün daha çox vaxt ayırmaqlarına kömək olacaq. Bundan əlavə, Süni İntellekt hər tələbənin çətinlik çəkdiyi fənləri araşdırıb onlara həmin fənn üzrə əlavə material təklif etməkdə köməklik göstərə bilər. Xarici ölkələrdə riyaziyyat mexanika və fizika ilə yanaşı biologiyaya, kimyaya, kosmologiyaya və komputer elmlərinə tətbiqi öyrənir. Ona görə də, mən Azərbaycana qayıtdıqdan sonra əldə etdiyim bilikləri və təcrübəni vebinar və bloq vasitəsilə maraqlanan insanlar ilə bölüşmək istəyirəm.



***Sevinc İbrahimova***
*Jurnalistika fakültəsi III kurs*

# Daun sindromlu şəxslərə həsr olunmuş "Biz də hamı kimiyik" adlı tədbir keçirilib

***Aprelin 18-də Kimya fakültəsinin könüllüləri və Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə Daun sindromlu şəxslərə həsr olunmuş "Biz də hamı kimiyik" adlı tədbir keçirilib.***

Tədbirdə çıxış edən BDU-nun Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Universitetdə həyata keçirilən könüllük fəaliyyətindən bəhs edib, ölkəmizdə Daun sindromlu şəxslərə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışıb.






Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin direktoru Natella Həsənova, Mərkəzin defektoloqu Günay Bədəlzadə, psixoloq Fərqanə Nağıyeva, pediatr Könül Hüseynova və BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin müəllimi Ülkər Qüdrətli çıxışlarında Daun sindromunun növləri, patologiyası, müalicə üsulları, dünyada və eləcə də ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər barədə ətraflı məlumat veriblər.

Daha sonra Kimya fakültəsinin könüllülərinin hazırladıqları səhnəcik və Daun sindromlu uşaqların rəqsi nümayiş olunub.

Sonda tədbirin təşkilatçıları Daun sindromlu uşaqlara hədiyyələr təqdim ediblər.

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Allahverdi Məmmədli
Cahangir Məmmədli
Samir Mirzəyev

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
**Çapa imzalanıb:**
31.03 .2022
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.
**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08